

Prezident İlham Əliyev: «Azərbaycan Cənubi Qafqazda peyvəndləməyə başlamış birinci ölkədir»

3




Ölkə başçısı Şağan Reabilitasiya Pansionatının açılışında iştirak edib

3



Sabunçu rayonu 7 nömrəli Birləşmiş Şəhər Xəstəxanasının yeni tikilmiş korpusu istifadəyə verildi

3


# TİBB qəzeti

Azərbaycan Respublikası
Səhiyyə Nazirliyi

№ 03-04 (715) 27 fevral 2021-ci il | Qəzet 1991-ci ildən nəşr olunur | www.tibbqazeti.az


## Prezident İlham Əliyev: «Səhiyyə sistemimizin tibb müəssisələri fondu indi ən yüksək standartlara cavab verir»



2

## Səhiyyə və tibb elmi sahəsində Azərbaycan – Pakistan əməkdaşlığının perspektivləri müzakirə edilib



6

## Azərbaycan COVID-19-a qarşı «Sputnik V» və «AstraZeneca» vaksinlərinin birgə tətbiqi tədqiqatına icazə verdi




5






## «Hartil®-D» preparatının bir seriyası qadağan edildi



11

### *Афоризм*

*Счастлив не тот, кто имеет всё лучшее, а тот, кто извлекает всё лучшее из того, что имеет.*

*Конфуций.*

# Prezident İlham Əliyev: «Səhiyyə sistemimizin tibb müəssisələri fondu indi ən yüksək standartlara cavab verir»

## *Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Abşeron RMX-nın yeni binasının açılışında iştirak ediblər*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezidenti Mehriban Əliyeva Abşeron Rayon Mərkəzi Xəstəxanasının (RMX) yeni inşa edilən binasının açılışında iştirak ediblər.**

Dövlət başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva xəstəxanada yaradılan şəraitlə tanış olublar.

Azərbaycan Prezidentinin müvafiq Sərəncamı ilə inşa olunan 150 çarpayılıq tibb müəssisəsi Yaponiya, Koreya Respublikası, İtaliya və Türkiyə istehsalı olan ən zəruri avadanlıqla təchiz edilib. Xəstəxanada cərrahiyyə, terapiya, pediatriya, reanimasiya, dializ və digər şöbələr, həmçinin laboratoriyalar fəaliyyət göstərəcək. Bu binaya Abşeron Rayon Mərkəzi Xəstəxanasının, onun nəzdində olan Abşeron Rayon Poliklinikasının, Abşeron Rayon Uşaq Poliklinikasının, eləcə də Təcili və təxirəsalınmaz tibbi yardım şöbəsinin köçürülməsi nəzərdə tutulub.

Yeni tibb müəssisəsində yaradılan şəraitlə tanışlıqdan sonra Prezident İlham Əliyev Azərbaycan Televiziyasına müsahibə verib.





Açılışını etdiyi səhiyyə ocağı ilə bağlı təəssüratları barədə suala cavabında dövlət başçısı deyib: «Təəssüratlar çox müsbətdir. Yeni tikilmiş bu xəstəxana bizim səhiyyə sahəsindəki fəaliyyətimizi əks etdirir. Bildiyiniz kimi, son illərdə bir çox xəstəxanalar tikilib və onların da müəyyən standartları var, həm memarlıq baxımından, həm də avadanlıqlarla təchizat baxımından. Ona görə əminəm ki, bu xəstəxanada vətəndaşlara keyfiyyətli tibbi xidmət göstəriləcək. Çünki bütün müasir avadanlıqlar burada quraşdırılıb.

Bir də ki, xəstəxana, eyni zamanda, həkimlərin iş yeridir. Burada 200-dən çox həkim və bütövlükdə 600-dən artıq tibb işçisi çalışacaq və təbii ki, onların da iş şəraiti müsbətə doğru dəyişir. Əminəm ki, burada göstəriləcək tibbi xidmət vətəndaşların sağlamlığını təmin edəcək, bərpa edəcək.

Xəstəxananın inşası bir daha onu göstərir ki, bu sahədəki fəaliyyətimiz ardıcıl şəkildə davam etdirilir və Abşeron rayonunda da müasir xəstəxana artıq fəaliyyət göstərir. Bunun üstünlüyü, eyni zamanda, ondadır ki, bu vaxta qədər müxtəlif tibb müəssisələri fərqli-fərqli yerlərdə məskunlaşmışdı, amma indi burada artıq həm xəstəxana, poliklinika, uşaq poliklinikası, doğum şöbəsi, təcili tibbi yardım şöbəsi – bütün şöbələr bir yerdə fəaliyyət göstərəcək. Əlbəttə ki, bu, insanların rahatlığı üçün də çox önəmlidir».

Ölkə rəhbərinin təşəbbüsü ilə Azərbaycanın bütün bölgələrində ən müasir standartlara uyğun xəstəxanaların tikildiyini xatırladan jurnalist soruşub ki, bundan sonrakı mərhələdə bu proqramın icrası davam etdiriləcəkmi?

Prezidenti İlham Əliyev bütövlükdə bu işin artıq başa çatmaq üzrə olduğunu, ölkəmizin bütün bölgələrində yeni xəstəxanaların fəaliyyət göstərdiyini söyləyib: «Son 17 il ərzində 750-dən çox xəstəxana ya yenidən tikilib, ya da ki, əsaslı şəkildə təmir edilib. Səhiyyə sistemimizin bu xəstəxana və tibb müəssisələri fondu, demək olar ki, indi ən yüksək standartlara cavab verir. Bundan sonra, əlbəttə ki, biz, ilk növbədə, səhiyyə sistemini təkmilləşdirmək və tibbi xidmətin xüsusilə indiki dövrdə keyfiyyətini artırmaq üçün əlavə addımlar atacağıq.

Səhiyyə sisteminin maddi-texniki bazasının yaradılması, müasirləşdirilməsi başlıca vəzifə idi. Mən xatırlayıram, 2004-cü ildə Prezident vəzifəsinə seçiləndən sonra bəyan etmişdim ki, biz qara qızılı insan kapitalına çevirməliyik. Sözün düzü, o vaxt bizim qara qızılımızın həcmi o qədər də böyük deyildi, Bakı-Tbilisi-Ceyhan neft kəməri hələ inşa edilməmişdi, ancaq biz bütün bu işləri artıq proqnozlaşdıra bilirdik. Bilirdik ki, bizi böyük neft hasilatı dövrü gözləyir. Ona görə neftdən əldən edilən gəlirləri insan kapitalına yönəltmək mənim başlıca vəzifəm idi. Dediyim kimi, bu vəzifə artıq bütövlükdə icra edildi. Bütün bölgələrdə ən müasir xəstəxanalar, poliklinikalar, diaqnostika mərkəzləri fəaliyyət göstərir. Əgər biz buna nail olmasaydıq, son illərdə hər il 5 milyon insan tibbi müayinədən keçə bilməzdi. Hesab edirəm ki, bu da böyük nailiyyətdir. Çünki mən bəlkə də 100-dən çox, – bəlkə də daha çox, indi hamısını xatırlamıram, – xəstəxananın, tibb müəssisəsinin açılışında olarkən dəfələrlə bir məsələyə vətəndaşların diqqətini cəlb edirdim ki, mütləq hər bir insan ildə bir dəfə müayinədən keçməlidir. Artıq bunu demirəm, buna ehtiyac yoxdur. Çünki bu, həll olundu və artıq bir neçə ildir ki, kütləvi surətdə müayinədən keçmə prosesi gedir. Yenə də deyirəm, dövlət hesabına 5 milyon insanı – ölkə əhalisinin yarısını tibbi müayinədən keçirmək böyük təşkilatçılıq və maliyyə resursları tələb edir. Azərbaycan nadir ölkələrdəndir ki, bu təşəbbüsü həm irəli sürüb, həm də bunu reallaşdırıb.

Eyni zamanda, bildiyiniz kimi, biz indi icbari tibbi sığorta sisteminə keçmişik. Bu keçid də mərhələli yollarla həll olunub. Pilot layihələrin icrası bizə ilkin məlumatlar verib və məlumatlar da çox müsbət idi. Pilot layihələrlə əhatə olunmuş üç şəhərdə həm tibbi xidmətin keyfiyyəti artdı, eyni zamanda, vətəndaşların məmnunluğu yüksək səviyyədə idi. Ona görə biz artıq bu sistemə də keçmişik. Əgər müasir xəstəxana fondu olmasaydı, buna keçmək



mümkün olmazdı. Yəni biz hər şeyi ardıcıllıqla edirik və yəqin ki, gələn 1-2 il ərzində böyük xəstəxanaların tikintisinə artıq son qoyulacaq və daha çox səhiyyə sisteminin təkmilləşdirilməsi, müasirləşdirilməsi istiqamətində addımlar atılacaqdır».

Xəstəxananın məhz qlobal pandemiya dövründə açılmasının xüsusi əhəmiyyətini vurğulayan jurnalist dövlət başçısından indiyə qədər Azərbaycanda bu virusla mübarizədə görülən işləri necə qiymətləndirdiyini soruşub.

Prezidenti İlham Əliyev deyib: «Bəli, əlbəttə, bu xəstəxananın açılışının pandemiya dövrünə təsadüf etməsi əlamətdar hadisədir. Amma, təbii ki, bu xəstəxananın tikintisi pandemiyaya qədər başlamışdı və biz bu xəstəxanaların tikilməsi ilə özümüzü mümkün olan sürprizlərdən sığortalamalı idik. Çünki heç kimin ağlına gələ bilməzdi ki, pandemiya baş verəcək. Ancaq başqa hansısa xoşagəlməz hadisələr baş verə bilərdi. Ona görə bizim xəstəxana fondu buna hazır olmalı idi. Pandemiya ilə mübarizədə Azərbaycan ilk günlərdən qabaqlayıcı tədbirlər görərək, hesab edirəm ki, istədiyinə nail oldu. Biz vəziyyəti bütün dövrlərdə, yəni bu bir il ərzində nəzarətdə saxlamağı bacarmışıq. Burada, əlbəttə ki, yeni laboratoriyaların ölkəyə gətirilməsi xüsusi rol oynamışdır. Çünki pandemiyaya qədər bizdə cəmi 8 laboratoriya var idi və gündə cəmi min test keçirilə bilərdi. Hazırda laboratoriyaların sayı 42-dir və 20 min test keçirilə bilər və bunu biz keçiririk. Bütövlükdə 2 milyon 400 min test keçirilib. Bu, çox böyük rəqəmdir.

Eyni zamanda, pandemiya dövründə ilk günlərdən modul tipli xəstəxanaların ölkəyə gətirilməsi ilə məşğul olmağa başlamışdıq və hesab edirəm ki, burada da liderlik göstərdik. Çünki bizdən sonra bir çox ölkələr oxşar addımlar atmışdır. Ancaq istehsalçılar artıq çatdıra bilmirdilər. Biz isə modul tipli 13 xəstəxananı Azərbaycana gətirdik, quraşdırdıq. İndi bizdə xəstəxana fondu tam imkan verir ki, xəstəliklə bağlı bütün məsələlər həll olunsun və həm palatalar, həm reanimasiya palataları kifayət qədərdir. Bunun və eyni zamanda, son həftələr ərzində dövlət siyasətinin nəticəsidir ki, müsbət dinamika müşahidə olunur, sağalanların sayı xəstələnənlərin sayından xeyli çoxdur. Hesab edirəm ki, vaksinasiya başladığı üçün bu sahədə daha da uğurlu addımlar atılacaq. Məhz buna görə biz indi yumşalma mərhələsinə qədəm qoymuşuq. Biz il ərzində rejimi gah yumşaldırdıq, gah sərtləşdirirdik, vəziyyətə uyğun şəkildə addımlar atırdıq ki, insanların sağlamlığını qoruyaq, eyni zamanda, insanlar üçün lazım olmayan halda əlavə çətinliklər yaratmayaq.

*(Ardı səhifə 4-də)*

# Prezident İlham Əliyev: «Azərbaycan Cənubi Qafqazda peyvəndləməyə başlamış birinci ölkədir»

**Biz pandemiyanın lap əvvəlindən vəziyyəti nəzarətdə saxlayırıq. Karantin rejiminin sərtləşdirilməsi və yumşaldılması üzrə görülmüş tədbirlər kifayət qədər səmərəli olub. Bizdə yoluxmanın səviyyəsi kifayət qədər aşağıdır.**



**Koronavirusa yoluxmuş insanların sayı hazırda 200 mindən bir qədər çoxdur. Bugünkü vəziyyətə görə, aktiv xəstələrin sayı 2 mindən bir qədər artıqdır. Bizim xəstəxanalarda boş yerlər çoxdur. Ona görə ki, əvvələn, pandemiyanın ilk aylarında biz 10-dan çox modul tipli yeni xəstəxana yaratmışıq. Həmçinin, son iki ayda yoluxanların və sağalanların sayı arasında sağalanların xeyrinə müsbət dinamika müşahidə olunur.**

AZƏRTAC xəbər verir ki, bunu Prezident İlham Əliyev yerli və xarici media nümayəndələri üçün keçirdiyi mətbuat konfransında Rusiyanın TASS agentliyinin sualını cavablandırarkən deyib.

Dövlət başçısı bildirib ki, Azərbaycan Cənubi Qafqazda peyvəndləməyə başlamış birinci ölkədir. Azərbaycan peyvəndləməyə yanvarın 18-də, yəni Avropada peyvəndləmə başlanandan cəmi bir ay sonra başlayıb.

«Biz Çində istehsal edilmiş «CoronaVac» peyvəndi ilə vaksinasiya aparırıq. Deməliyəm ki, biz həm də lap əvvəldən COVAX layihəsinə qoşulmuşuq. Bu layihə üzrə biz «AstraZeneca», «Pfizer» və «Moderna» peyvəndlərini də almalıyıq. Bundan əlavə, biz Azərbaycana «AstraZeneca» vaksininin göndərilməsi barədə lap ilk günlərdən Rusiya tərəfi ilə müvafiq sənədlər imzalamışıq. Ona görə ki, Rusiya şirkətləri postsovet məkanında bu vaksinin, həmçinin «Sputnik» vaksininin distribüterləridir. Lakin hələlik bu vaksinlər bizə daxil olmayıb. Bizdə olan məlumata görə, «Sputnik» vaksini hələlik Rusiyanın daxili ehtiyaclarını təmin edir və xarici ölkələrə bu vaksin çox məhdud miqdarda göndərilib», — deyə Prezident əlavə edib.

Dövlət başçısı həmçinin vurğulayıb ki, bizim beynəlxalq səviyyədə, o cümlədən Qoşulmama Hərəkatının sədri kimi təşəbbüsümüzlə BMT Baş Assambleyasının COVID-19-a həsr edilmiş xüsusi sessiyası keçirilib. 150-dən çox ölkə bu təşəbbüsü dəstəkləyib. Sessiyanın ötən ilin dekabr ayında keçirildiyini xatırladan Azərbaycan Prezidenti deyib: «Mənim orada səslən-dirdiyim tezislərdən biri vaksinlərin dünya ölkələri arasında ədalətli bölgüsü idi ki, bu məsələdə proteksionizm, millətçilik olmasın. Lakin təəssüf ki, tamam başqa mənzərə gördük. Görürük ki, hətta müttəfiqlər arasında da ciddi problemlər yaranır, kimin neçə vaksindən istifadə etməsini və kimin kimə nəyi yarımçıq verməsini hesablamağa başlayırlar. Ona görə bu vəziyyət bir daha göstərir ki, həmrəylik barədə, bu bəlaya qarşı birgə mübarizə barədə bütün bəyanatlara baxmayaraq, praktikada tamamilə əks vəziyyət görürük. Məsələn, bəzi ölkələr onlara lazım olandan 3-4 dəfə çox vaksin alıblar. Misal üçün, Kanada. Mən bu barədə demişəm. Belə çıxır ki, kiməsə çatmayacaq. Amma bu, onlara maraqlı deyil. Onlar sözdə bərabərlik, insan haqları, demokratiya tərəfdarları kimi çıxış edir, praktikada isə milyonlarla insanın, yoxsul ölkələrdə yaşayan və buna imkanı olmayan insanların hüquqlarını tapdalayırlar», — deyə dövlətimizin başçısı vurğulayıb.

Prezident qeyd edib ki, deməli, varlılar özlərini peyvəndləyəcək, bütün istehsalı özlərinə götürəcək, necə deyərlər, elementar insan davranışı qaydalarına tam etinasızlıq göstərəcək, yoxsul ölkələr isə əziyyət çəkməli olacaqlar: «Mən BMT Baş Assambleyasının xüsusi sessiyasında bu məsələni qaldırmışam və bu gün Qoşulmama Hərəkatı çərçivəsində bu məsələ barədə fəal diskussiya aparırıq. Bir çox ölkələr mənim təşəbbüsümü dəstəkləyiblər. Hazırda əlavə məsləhətləşmələr aparılır və biz əməli işə keçməliyik. Şablon bəyanatlar səsləndirmək kifayətdir, onların arxasında heç bir iş dayanmır. Bunlar artıq hamını bezdirib. Bu məsələ hər bir insana aiddir. Biz bu məsələdə həm milli mənada, həm də bu gün üzvlərinin sayına görə dünyada BMT-dən sonra ikinci beynəlxalq qurumda sədrlik edən ölkə kimi prinsipiallıq göstəririk».

# Prezident İlham Əliyev Şağan Reabilitasiya Pansionatının açılışında iştirak edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakının Xəzər rayonunda Şağan Reabilitasiya Pansionatının əsaslı təmirdən sonra açılışında iştirak edib.**

Dövlət başçısı pansionatda yaradılan şəraitlə tanış olub.

Məlumat verilib ki, bu pansionat ümummilli lider Heydər Əliyevin tapşırığı ilə 2003-cü ildə istifadəyə verilib. Ötən il isə burada əsaslı təmir işləri görülüb. Yenidən qurulan 250 çarpayılıq pansionat ildə 5 min nəfərədək xəstə qəbul edə bilər. Bu tibb müəssisəsində ürək-damar, oynaq-hərəkət, əsəb sistemi, endokrin xəstəliklərdən əziyyət çəkənlərə xidmət göstəriləcək. Əsas xidmətlər isə funksional diaqnostika, fizioterapiya müalicəsi, tibbi vannalar, müalicəvi bədən tərbiyəsi, sosial-psixoloji reabilitasiyadır. Burada müalicə alanların reabilitasiyasında müasir metodika ən qabaqcıl texnologiyanın tətbiqi ilə paralel təşkil olunacaq.

Pansionatda Abşeronun iqliminə xas olan klimoterapiya bu müalicə ocağının əsas özəlliklərindən biridir. Burada mövsümə uyğun iqlimlə müalicə imkanları ilə yanaşı, fizioterapiyanın da, demək olar ki, bütün sahələri əhatə edilib.

Bildirilib ki, post-müharibə dövründə bu tip müalicə



mərkəzlərinin əhəmiyyəti xüsusi nəzərə çarpır. Müalicə xidməti ilə bərabər, əlilliyi olan şəxslərin sosial statusunun bərpası, cəmiyyətə inteqrasiyası əsas məsələlərdəndir.

Bu il istifadəyə verilməsi isə bu potensial cəmi 10 min nəfərə bərabər idi.

Müharibədən sonrakı dövrdə 210 qaziyə 1220 reabilitasiya vasitəsi verilib, 15 hərbçi yüksək texnologiyalı protezlə təmin edilib. Vətən




gözlənilən Şamaxı Psixonevroloji Sosial Xidmət Müəssisəsi, Qəbələ və Şəmkir Uşaq Reabilitasiya mərkəzləri də daxil olmaqla, ümumilikdə reabilitasiya xidmətləri göstərilən şəxslərin sayı 30 min nəfərə çatacaq. 2018-ci ildə müharibəsində yaralanmış şəxslərin 90 faizi ilə artıq evlərində görüş keçirilib. Amputasiyası olan 301 nəfərdən 109-nun protez ehtiyacları müəyyən edilib. 2021-ci ildə onların protezlə təmin olunması planlaşdırılır.

# Sabunçu rayonu 7 nömrəli Birləşmiş Şəhər Xəstəxanasının yeni tikilmiş korpusu istifadəyə verildi

**Sabunçu rayonunun Maştağa qəsəbəsində yerləşən 7 nömrəli Birləşmiş Şəhər Xəstəxanasının əsaslı təmir edilmiş korpusunun açılışı olub.**



Tibb müəssisəsində xəstələrin qəbulu və müalicəsi üçün hər cür şərait yaradılıb. 100 çarpayılıq xəstəxananın 63 çarpayılıq yeni korpusunda inzibati, qəbul, funksional diaqnostika, pediatriya və terapiya şöbələri fəaliyyət göstərəcək. 356 nəfərlik personal gündə 500-ə yaxın xəstə qəbul edə biləcək.

Qeyd edək ki, iki korpuslu 7 nömrəli Birləşmiş Şəhər Xəstəxanası stasionar və poliklinika şöbələrindən ibarətdir. Yeni korpus Səhiyyə Nazirliyi tərəfindən müasir avadanlıqlarla təchiz edilib.

Tibb ocağının açılışı münasibətilə keçirilən mərasimdə Azərbaycan Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı Eldar Quliyev, Azərbaycan Ağsaqqallar Şurasının sədr müavini, Milli Məclisin deputatı Eldar İbrahimov və Bakı Şəhər Baş Səhiyyə İdarəsinin rəisi Nelli Veysova çıxış edərək, ölkəmizdə sosial məsələlərin həlli, insanların yaxşı yaşaması, tibbi xidmətin səviyyəsinin daha da yüksəldilməsi üçün böyük işlərin görüldüyünü vurğulayıb, həyata keçirilən tədbirlərə görə Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya təşəkkürlərini bildiriblər.

Xəstəxananın baş həkimi vəzifəsini icra edən Səriyyəxanım Səfərova çıxışında belə gözəl, müasir avadanlıqlarla təchiz olunmuş xəstəxana korpusunun istifadəyə verilməsinə görə minnətdarlığını ifadə edib. O, bu səhiyyə ocağında pasiyentlərə yüksək səviyyədə və keyfiyyətli xidmətin göstərilməsi üçün əllərindən gələni əsirgəməyəcəklərini qeyd edib.

Sonda tədbir iştirakçıları yeni korpusda yaradılmış şəraitlə, tibb müəssisəsinin həyətyanı sahəsində aparılmış abadlıq və yaşıllaşdırma işləri ilə tanış olublar.

# Prezident İlham Əliyev: «Səhiyyə sistemimizin tibb müəssisələri fondu indi ən yüksək standartlara cavab verir»

*(Əvvəli səhifə 2-də)*

Yəni biz daim bu məsələyə çox həssaslıqla yanaşmışıq ki, bu iki vacib məsələni həll edək – insanların sağlamlığı, onların rahatlığı və necə deyərlər, mənəvi durumu».

Azərbaycan Televiziyasının müxbiri xatırladıb ki, ölkəmizdə həyata keçirilən həm preventiv, həm də xəstəliklə mübarizə tədbirləri beynəlxalq səviyyədə, müxtəlif aparıcı beynəlxalq qurumlar tərəfindən çox yüksək qiymətləndirilib, hətta mübarizədə «Azərbaycan modeli» ifadəsindən də bəzi hallarda istifadə olunub. Bu barədə fikirlərini bildirən Prezidenti İlham Əliyev deyib ki, bu bizi çox sevindirir: «Biz, əlbəttə, çox məmnunuq ki, beynəlxalq təşkilatlar Azərbaycanın fəaliyyətini yüksək qiymətləndirirlər. Ancaq əsas vəzifəmiz ondan ibarət idi ki, xalqımızı, vətəndaşlarımızı qoruyaq. Çünki pandemiyanın ilk günlərində bəlli deyildi ki, bu xəstəliyin hansı təhlükələri, yaxud da ki, hansı fəsadları ola bilər və bu gün də tam axıra qədər tədqiqatlar aparılmayıb. Ona görə biz ilk günlərdən bu addımları ataraq və eyni zamanda, Ümumdünya Səhiyyə Təşkilatı ilə təmaslar quraraq, bu sahədə maksimum səmərəli iş aparmaq üçün çalışmışıq. Qeyd etdiyiniz kimi, artıq Ümumdünya Səhiyyə Təşkilatı «Azərbaycan modeli» haqqında danışır, görülən işlərə yüksək qiymət verir, bir neçə dəfə Azərbaycanı nümunəvi ölkə kimi təqdim etmişdir. Eyni zamanda, bu yaxınlarda mənə verilən məlumata görə, dünyanın aparıcı rəy sorğusu şirkəti olan «Gallup» da Azərbaycan vətəndaşları arasında təhlil-rəy sorğusu aparıb. Vətəndaşların 86 faizi dövlətin bu sahədəki fəaliyyətini yüksək qiymətləndirir və bu göstəriciyə görə Azərbaycan dünyada 4-cü yerdədir. Yəni həm beynəlxalq təşkilatlar, bu sahədə aparıcı təşkilat olan Ümumdünya Səhiyyə Təşkilatı, həm də ölkə əhalisi bizim fəaliyyətimizi yüksək qiymətləndirir. Bu özlüyündə bir göstəricidir və onu göstərir ki, biz düzgün yoldayıq, hər zaman vətəndaşlara həqiqəti demişik. Hər zaman vətəndaşlara problem yarada biləcək hansısa məhdudiyyətlər haqqında danışanda deyirdik ki, bu, zəruridir, bu, labüddür, bunu biz etməsək, böyük problemlərlə üzləşə bilərik, bizim səhiyyə sistemimiz artan xəstələrin müalicəsi ilə bağlı öz resurslarını səfərbər edə bilməyəcək. Şadam ki, bizim bütün çağırışlarımız vətəndaşlar tərəfindən də anlayışla qarşılandı. Nəticə etibarilə, həm dövlət siyasəti, həm vətəndaşların artan məsuliyyəti imkan verdi ki, bu gün vəziyyət nəzarət altındadır».

Bu müddət ərzində Azərbaycanın xarici ölkələrə yardımı ilə bağlı suala cavab olaraq dövlət başçısı bildirib ki, biz bunu bir məsuliyyətli ölkə kimi özümüzə borc bildik: «Xüsusilə Azərbaycan Qoşulmama Hərəkatına sədrlik edən bir ölkə kimi mütləq bunu etməli idi. Bir çox ölkələrin maddi vəziyyəti, xüsusilə indiki dövrdə çox aşağıdır. Bir çox ölkələr vətəndaşların gündəlik tələbatlarını ödəyə bilmirlər. Belə olan halda, biz hesab edirik ki, mütləq imkan daxilində bu yardımı etməliyik. Beləliklə, bu dövr ərzində 30-dan çox ölkəyə maliyyə və humanitar yardım göstərilmişdir, eyni zamanda, beynəlxalq təşkilatlara, o cümlədən Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon dollar məbləğində könüllü ianə verilmişdir. Onun 5 milyonu onların ümumi pandemiya ilə bağlı tədbirlərinə, 5 milyonu isə Qoşulmama Hərəkatına üzv olan xüsusilə kasıb ölkələrin yardımına istiqamətləndirilmişdir.

Bundan əlavə, biz beynəlxalq müstəvidə Zirvə görüşlərinin keçirilməsinin də təşəbbüskarı olmuşuq. Həm Türk Şurasının, həm Qoşulmama Hərəkatının iki Zirvə görüşü COVID-19-a həsr edilmişdir. Onların da çox müsbət nəticələri olmuşdur. Çünki birinci belə bir təşəbbüs idi, bunu da biz irəli sürdük, hər iki qurumun sədri kimi. Ondan sonra artıq Qoşulmama Hərəkatının üzvlərinin dəstəyi ilə BMT Baş Assambleyasının xüsusi sessiyasını keçirdik. Bu, o qədər də asan deyildi. Çünki Baş Assambleyanın xüsusi sessiyasını keçirmək üçün bir çox amillər lazımdır. Deyə bilərəm ki, bəzi ölkələr açıq etiraz etməsələr də, buna o qədər də maraqlı deyildilər. Çünki bəziləri hesab edirdi ki, belə bir təşəbbüs, necə deyərlər, ancaq böyük ölkələrə məxsus olmalıdır və belə bir təşəbbüs, yəqin ki, onların fikirlərinə görə, gərək, daha əvvəl razılaşdırılaydı. Biz isə onu öz təşəbbüsümüz kimi irəli sürdük. Bildiyiniz kimi, Ermənistan buna qarşı çıxmışdır və bu da böyük təəccüb doğururdu. Yəni Ermənistanda azərbaycanofobiyanın nə qədər böyük olduğunu Ermənistan bir daha bütün dünyaya göstərdi və bu, müharibədən əvvəl olan hadisə idi.



BMT Baş Assambleyasının xüsusi sessiyasında mən Qoşulmama Hərəkatının sədri kimi çıxış edərkən bütün ölkələri həmrəyliyə çağırmışdım ki, bu bəlaya qarşı mübarizədə biz səylərimizi birləşdirməliyik, burada hansısa birtərəfli addımlar atılmamalıdır, zəngin ölkələr məsuliyyət göstərməlidirlər. Peyvənd bütün ölkələrin xalqlarına çatmalıdır. Hətta demişdim ki, kasıb olan ölkələrin vətəndaşları üçün zəngin olan ölkələr o peyvəndi alıb onlara ötürsünlər. Şirkətlərə də çağırışlar etmişdim ki, onlar da bu sahədə qazanc dalınca qaçmasınlar, yəni məsuliyyətli olsunlar. Prinsipcə, mənim bu çağırışlarımı bir çox ölkələr dəstəklədi, amma əfsuslar olsun ki, real həyat bizə tam başqa mənzərə nümayiş etdirir. Burada sözlə əməl arasında böyük bir fərqi görürük».

Söhbət zamanı vaksinasiya, vaksinlərin ədalətli bölgüsü, bu sahədə müəyyən ölkələr arasında yaranan gərginlik məsələlərinə toxunulub. Prezident deyib ki, bu gərginliyin səbəbi ədalətsizlik, bu sahədə hətta müttəfiqlər arasındakı münasibətlərdə olan ziddiyyətlərdir. Bildirib ki, çoxəsrlik tellərlə bir-birinə bağlı olan Avropa İttifaqı ilə Böyük Britaniya arasında vaksinlə bağlı qalmaqal özlüyündə çox narahatedici faktdır: «Avropa İttifaqı nümayəndələri Böyük Britaniyanı ittiham edirlər ki, onların istehsal etdikləri vaksinin qeyri-ədalətli bölünməsi ilə bağlı çox ciddi proseslər gedir... Bildirilmişdir ki, Böyük Britaniya vətəndaşlarının 13 faizi artıq peyvəndi alıb, Avropa İttifaqı vətəndaşları isə 2 faiz. Əgər belə gedərsə, Böyük Britaniya əhalinin 75 faizini iyul ayına qədər vaksinlə təmin edəcək, Avropa İttifaqı isə oktyabr ayına qədər. Bu, çox düşündürücü açıqlamalardır. Hətta ondan sonra biz gördük ki, bəzi embarqolar da qoyuldu. Bildiyiniz kimi, bəzi istehsal sahələri Avropada təşkil olunub. Ona görə belə bir qalmaqal yarandı. Əlbəttə ki, biz gərək buna diqqətlə nəzər salaq. Əgər inkişaf etmiş ölkələr bu vaksinləri öz aralarında ədalətli bölə bilmirlərsə və qarşılıqlı ittihamlar irəli sürürlərsə, onda başqa ölkələr nə fikirləşməlidir? Kasıb ölkələr, inkişafda olan ölkələrin vətəndaşları – bəs, onlara kim kömək göstərəcək? Bu haqda düşünülmür? Mən inkişaf etmiş bir çox ölkələrin liderlərindən bu günə qədər bu çağırışları eşitməmişəm.

Ona görə biz Qoşulmama Hərəkatının sədri olaraq və öz bəyanatlarımıza sadiq qalaraq artıq dünya arenasında bu məsələni qaldırırıq. Mən sədrliyi öz üzərimə götürərkən demişdim ki, Azərbaycan beynəlxalq hüququ və ədaləti müdafiə edəcək, bütün üzv ölkələrin maraqlarını müdafiə edəcək və biz bunu edirik. Bu iki Zirvə görüşünün və bir xüsusi sessiyanın keçirilməsi onu göstərir ki, biz özümüzü bu sahədə də məsuliyyətli ölkə kimi aparırıq və bundan sonra da öz səsimizi daim ucaldacağıq. Çünki istisna edilmir ki, bundan sonra vaksinlər uğrunda mübarizə daha da kəskinləşəcək və bu, çox faciəvi fəsadlara gətirib çıxara bilər».

Azərbaycanda artıq başlanmış vaksinləmə prosesi ilə bağlı görülən işləri müsbət qiymətləndirən dövlət başçısı deyib ki, Azərbaycan Cənubi Qafqazda ilk olaraq vaksinasiya işlərinə start verib: «Yerləşdiyimiz bölgədə Azərbaycan birincilər sırasındadır. Onun nəticəsidir ki, pandemiyanın ilk günlərindən işlər düzgün qurulmuşdur, bütün lazımi addımlar atılmışdır, beynəlxalq təşkilatlarla təmaslar qurulmuşdur. Biz COVAX təşəbbüsünün üzvüyük və COVAX xətti ilə müxtəlif vaksinləri ölkəmizə gətirəcəyik. Eyni zamanda, biz bir neçə şirkətlə vaksinlərin ölkəmizə gətirilməsi ilə bağlı müqavilələr bağlamışıq. Amma onların bəzilərinin icrası indi yubanır, yəqin ki, dediyim bu səbəblərə görə. Eyni zamanda, biz artıq 4 milyon doza vaksin sifariş etmişik və onların artıq Azərbaycana gəlməsi təmin edilib, Çin istehsalı olan vaksinlər. Yanvarın 18-dən başlayaraq Azərbaycanda vaksinasiya başlamışdır. Müqayisə üçün deyə bilərəm ki, Avropa İttifaqında bu, keçən il dekabrın 18-də başlamışdır. Yəni bir aydan sonra artıq Azərbaycan vətəndaşları bu vaksinləri alırlar, peyvənd olunurlar. Əlbəttə ki, bu, vaksinasiya sahəsində də bizim səmərəli işimizin təzahürüdür.

Onu da bildirməliyəm ki, indiki şəraitdə, xüsusilə zəngin ölkələr arasında olan bu ixtilaflar istehsalçılara da mənfi təsir göstərir, bir çox ölkələrin vətəndaşlarını bu vaksinlərdən məhrum edir. Ondan başqa, bu, dünyada ölkələr arasındakı inamsızlığı da alovlandırır. İndi siz Avropa İttifaqı ilə Böyük Britaniya arasındakı qalmaqaldan danışdınız, amma başqa misallar da var. Misal üçün, yenə də açıq mətbuata istinad edərək deyə bilərəm ki, inkişaf etmiş ölkələr dünya əhalisinin 14 faizini təşkil edir. Halbuki inkişaf etmiş ölkələr bu günə qədər dünya vaksinlərinin 53 faizini sifariş ediblər. Yəni bu, yenə də ədalətsizlik, qeyri-bərabərlikdir». Dövlət başçısı qeyd edib ki, «Moderna» vaksininin 98 faizini, «Pfizer» vaksininin 96 faizini zəngin ölkələr sifariş ediblər. Belə yanaşma isə kasıb ölkələrin vətəndaşlarını virus qarşısında müdafiəsiz qoyur. Əhalisi 38 milyon olan Kanada öz əhalisindən dörd dəfə çox – 154 milyon əhali üçün vaksinlər sifariş edib. Bu isə o deməkdir ki, başqa ölkələrin 120 milyon əhalisinə bu vaksin çatmayacaq. Deməli, kasıb ölkələrin insanlarının haqları tapdalanır, onların səhhəti, sağlamlığı risk altına düşür.

Prezident vurğulayıb ki, bu, tək bu xəstəliklə bağlı olan məsələ deyil: «Bunun çox dərin kökləri var və bu, təsadüfi deyil. Çünki bu dərin köklər bizi müstəmləkəçilik dövrünə aparır. Amma elə bil ki, biz neomüstəmləkəçilik dövrünü qeyri-rəsmi müşahidə edirik, yaxud da ki, elan edilməmiş müstəmləkəçilik, bunun başqa adı yoxdur. Belə olan halda bu ölkələrin mənəvi haqqı varmı kiməsə nəsə desin, kimisə nədəsə ittiham etsin? Bu, eqoizmdir, vicdansızlıqdır. Azərbaycan – Qoşulmama Hərəkatına sədrlik edən ölkə burada səssiz qalmır və qalmayacaq. Bu gün mən bu imkandan istifadə edərək Qoşulmama Hərəkatının üzvlərinə də çağırış edirəm ki, onlar da bizim səsimizə qoşulsunlar və biz bu məsələni beynəlxalq kürsülərdə, BMT kürsüsündə qaldırmalıyıq. Ümumdünya Səhiyyə Təşkilatına müraciət etməliyik, şirkətlərə müraciət etməliyik, zəngin ölkələrə müraciət etməliyik ki, bu ölkələr bu praktikadan əl çəksinlər. Bu, ədalətsizlikdir. Buna göz yummaq olmaz. Bunun üstünü örtmək olmaz. Bu barədə Azərbaycan BMT-dən sonra ikinci böyük təsisatın lideri kimi, öz sözünü bundan sonra da deyəcək».

Prezident İlham Əliyev həmçinin erməni işğalından azad edilən torpaqlarla bağlı təəssüratlarını bölüşüb, müxtəlif dövlət qurumlarının Şuşada nümayəndəlik açmaq istəyinə münasibət bildirib.

# Hikmət Hacıyev: «COVID-19 başlayandan sonra biz səhiyyə sistemimizin pandemiyaya hazırlığını təmin etdik»

***«COVID-19 pandemiyası və peyvəndləmənin geosiyasi aspektləri» mövzusunda beynəlxalq vebinar keçirilib***

**Azərbaycanda koronavirus yayılmağa başladığı dövrdən biz ölkəmizin səhiyyə sisteminin COVID-19 pandemiyasına hazırlanmasını təmin etdik, onu yeni reallıqlara uyğunlaşdırdıq. Çünki Azərbaycan bundan əvvəl belə bir pandemiya ilə üzləşməmişdi və səhiyyə sistemində müəyyən dəyişikliklər edilməli idi.**





Bu sözləri Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin təşkilatçılığı ilə keçirilən «COVID-19 pandemiyası və peyvəndləmənin geosiyasi aspektləri» mövzusunda beynəlxalq vebinarda Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib.

Prezidentin köməkçisi bildirib ki, Azərbaycan öz təcrübəsinə əsasən beynəlxalq səviyyədə bir sıra təşəbbüslər irəli sürüb, xüsusilə beynəlxalq səylərə dəstəyini göstərib. Hikmət Hacıyev deyib: «Çünki hamı təhlükəsizlikdə olmasa, heç kim təhlükəsiz ola bilməz. Ona görə də yerli və beynəlxalq səviyyədə tədbirlər bir-birini tamamlamalı idi. Bu yanaşmaya əsasən, biz Ümumdünya Səhiyyə Təşkilatı ilə sıx əməkdaşlıq qurduq. Bu əməkdaşlıq çərçivəsində Türk Şurasının və Qoşulmama Hərəkatının pandemiyaya həsr olunmuş sammitlərini təşkil etdik. Tədbirlərdə pandemiyaya qarşı birgə mübarizə məsələləri müzakirə olundu. Həmçinin səhiyyə mütəxəssislərinin görüşləri təşkil edildi».

Prezidentin köməkçisi həmçinin qeyd edib ki, COVID-19-la əlaqədar Azərbaycan Prezidenti BMT-nin növbədənkənar sessiyasının çağırılması təşəbbüsünü irəli sürüb və bu təşəbbüs BMT-yə üzv dövlətlər tərəfindən dəstəklənib.

Beynəlxalq vebinarda çıxış edən Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Azərbaycandakı nümayəndəsi Hande Harmancı deyib ki, yeni növ koronavirus pandemiyası həyatımızda gördüyümüz ən pis pandemiyadır və qlobal olaraq bütün dünyaya təsir edib. O vurğulayıb ki, COVID-19-un təsirinə bütün ölkələr məruz qalsa da, ondan ən kasıb dövlətlər daha çox əziyyət çəkir: «Sözsüz ki, daha həssas ölkələr və əhali qrupları daha çox təsirə məruz qalıb. Yaxşı xəbər budur ki, dünya səviyyəsində yeni yoluxma hallarının sayı azalmaqdadır. Təxminən 70 faizə qədər azalma var. Lakin bir çox ölkədə gündəlik yoluxma hallarında artım müşahidə olunur».

H.Harmancı bildirib ki, pandemiya qlobal səviyyədə səhiyyə sisteminin hazırlığının və çevikliyinin əhəmiyyətini bir daha ön plana çıxarıb: «Pandemiyanın ilk ilini arxada qoyandan sonra qlobal səylər nəticəsində əlimizdə artıq bir sıra vaksinlər və diaqnostika metodologiyası var. Bunlarla pandemiyaya nəzarət etmək mümkündür. Bu həm ümid yaradır, həm də sınaqdır. Sözsüz ki, pandemiya ilə mübarizədə çox mühüm bir mərhələyə gəlib çatmışıq. Vaksinasiyadan əlavə, əl gigiyenasına, fiziki məsafə prinsiplərinə, maska istifadəsinə diqqət yetirilməlidir. Çünki virusun yeni variantları, ştammları ortaya çıxa bilər».

ÜST-nin Azərbaycandakı nümayəndəsi dünyada peyvəndlərin paylanması ilə bağlı bərabərsizliyin artmasına təəssüfləndiyini deyib. Bildirib ki, vaksinləri tətbiq edən ölkələrin 90 faizi zəngin ölkələrdir: «Hazırda 3,5 milyon doza 10 ölkəyə paylanılıb. 2,5 milyard əhalisi olan 130 ölkə isə vaksinin heç bir dozasını da əldə edə bilmir. Bu bərabərsizliyi aradan qaldırmaq üçün birgə işləmək, yeni texnologiyalar yaratmaq lazımdır».

H.Harmancı ÜST-nin COVAX platformasının sırf bərabərsizliyi aradan qaldırmaq üçün yaradılan təşəbbüs olduğunu da diqqətə çatdırıb.

# Azərbaycan COVID-19-a qarşı «Sputnik V» və «AstraZeneca» vaksinlərinin birgə tətbiqi tədqiqatına icazə verdi

**Səhiyyə Nazirliyi Rusiyanın «Sputnik V» vaksininin və «AstraZeneca» şirkətinin Oksford Universiteti ilə birlikdə işləyib hazırladığı vaksinin birgə tətbiqi üzrə Azərbaycan Respublikasında kliniki tədqiqatların aparılmasına icazə verib. Bu tədqiqatların fevral ayının sonuna qədər başlanılması nəzərdə tutulur.**

Bu barədə nazirliyin mətbuat xidmətindən məlumat verilib.

Qeyd olunur ki, daha əvvəl – 2020-ci ilin dekabrında N.F.Qamaleya adına Elmi Tədqiqat Mərkəzi, Rusiyanın Birbaşa İnvestisiyalar Fondu (RBİF), «AstraZeneca» şirkəti və «R-Pharm» Şirkətlər Qrupu Rusiya Prezidenti Vladimir Putinin iştirakı ilə müvafiq sənəd – koronavirus əleyhinə vaksinin hazırlanması sahəsində əməkdaşlıq haqqında birgə memorandum imzalayıblar.







Dünyada vaksinlərin ilk birgə tətbiqi üzrə bu araşdırma dekabrın 24-də qeydə alınan kliniki sınaqların protokolu çərçivəsində həyata keçiriləcək.

Tədqiqatlar «Sputnik V» vaksininin və «AstraZeneca» şirkəti tərəfindən Oksford Universiteti ilə birgə işlənib hazırlanmış vaksinin kombinasiya edilmiş tətbiqinin immunogenliyini və təhlükəsizliyinin qiymətləndirilməsini nəzərdə tutur. Tədqiqat proqramı bir neçə ölkənin ərazisində 6 ay davam edəcək. Bu tədqiqatların aparılmasına hər bir ölkədən 100 könüllünün cəlb edilməsi planlaşdırılır.

«Sputnik V» vaksini insan adenovirusu əsasında iki inyeksiya üçün eyni vektordan istifadə edən vaksinlərlə müqayisədə daha güclü və uzunmüddətli immun cavabını təmin etməyə imkan verən iki müxtəlif vektorun kombinasiyasının unikal texnologiyasından istifadə edir. Birinci və ikinci immunizasiya üçün iki müxtəlif adenovirus vektorunun tətbiqi üzrə sxem birinci immunizasiyadan sonra formalaşan ilk vektor immunitetinin qarşısını almağa imkan verir və bununla da ikinci inyeksiyanın səmərəliliyini artırır və uzunmüddətli immunitet yaradır. Bu sxem sayəsində «Sputnik V» vaksininin səmərəliliyi 90 faizdən çox olur, bununla belə, preparat xəstəliyin ağır hallarına qarşı tam müdafiəni təmin edir. Koronavirusa qarşı mövcud olan qabaqcıl vaksinlər arasında hazırda yalnız «Sputnik V» iki müxtəlif vektor texnologiyasına malikdir.

Vaksin «Vaccitech» şirkəti ilə birlikdə Oksford Universiteti tərəfindən hazırlanıb. Bu, şimpanzedə infeksiyaya səbəb olan adi soyuqdəymə virusunun (adenovirusun) zəifləmiş versiyası əsasında şimpanzenin replikasiya qüsurlu virus vektorundan istifadə edir və SARS-CoV-2 zülalının genetik materialından ibarətdir. Vaksinasiyadan sonra zülalın səthi sintezi baş verir. Bu da bu virusun ehtimal edilən sonrakı infeksiyası zamanı SARS-CoV-2-yə qarşı immunitet reaksiyasının yaranmasına səbəb olur.




# ÜST COVID-19-la qlobal mübarizədə iştirakına görə Azərbaycana təşəkkür edib

**Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) COVID-19 pandemiyasına qarşı qlobal səviyyədə mübarizə aparan ölkələrə və təşkilatlara təşəkkürünü bildirib.**

Yeni növ koronavirusun törətdiyi xəstəliyin bütün dünyada geniş yayıldığı bir vaxtda ÜST və onun tərəfdaşları dünya ölkələrinə bu pandemiyaya qarşı mübarizədə öz dəstəklərini davam etdirirlər. Təşkilat COVID-19-la mübarizədə dünya ölkələrinə yardım edən hökumətlərə, təşkilatlara və ayrı-ayrı şəxslərə minnətdarlığını ifadə edən məlumat yayıb. Bir çox donor təşkilatların və hökumətlərin dəstəyi sayəsində həyata keçirilmiş tədbirlərin geniş şəkildə qeyd olunduğu məlumatda təşəkkür bildirilən ölkələr sırasında Azərbaycanın da adı var.

ÜST bildirir ki, donorların və tərəfdaşların dəstəyi olmadan pandemiyaya qarşı mübarizədə həmin ölkələrə kömək mümkünsüz olardı.

ÜST koronavirusla qlobal səviyyədə mübarizəyə töhfə verən, xüsusilə də bu virusa qarşı hərtərəfli mübarizə aparmaq məqsədilə çevik həllər təklif edən bütün hökumətlərə, təşkilatlara və ayrı-ayrı şəxslərə minnətdarlığını bildirib.

Adı çəkilən siyahıda Azərbaycanla yanaşı, bir sıra ölkələr, həmçinin Afrika İnkişaf Bankı, Bill və Melinda Geyts Fondu, Amerikalararası İnkişaf Bankı, İslam İnkişaf Bankı, OPEC, Beynəlxalq İnkişaf Fondu, «Standard Chartered» bankı, BMT-nin Humanitar məsələlərin koordinasiya ofisi, BMT-nin İnkişaf Proqramı (BMTİP), BMT-nin Əhali Fondu (BMTƏF), BMT-nin Uşaq Fondu (UNICEF), Dünya Bankı kimi təşkilatlar qeyd olunub.

# Səhiyyə və tibb elmi sahəsində Azərbaycan – Pakistan əməkdaşlığının perspektivləri müzakirə edilib



**Azərbaycan Respublikasının səhiyyə naziri Oqtay Şirəliyev ilə Pakistan İslam Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Bilal Hayenin görüşü keçirilib.**

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən bildirildiyinə görə, tədbirdə səhiyyə və tibb elmi sahəsində əməkdaşlığın inkişaf etdirilməsi və gücləndirilməsinin yeni perspektivləri müzakirə olunub.

Görüşdə qeyd edilib ki, bütün sahələrdə olduğu kimi, səhiyyə və tibb elmi sahəsində də iki ölkə arasında nümunəvi əməkdaşlıq var.

Tərəflər Pakistanın əczaçılıq şirkətlərinin Azərbaycanda təmsil olunmasının, eləcə də bu ölkənin tibbi avadanlıqlar sənayesinin yüksək keyfiyyətli məhsullarının ölkəmizdə istifadəsinin müstəsna əhəmiyyət kəsb etdiyini vurğulayıblar.

Qarşılıqlı anlaşma şəraitində keçən görüşdə səhiyyə nazirlikləri arasında tibb elmi sahəsində əməkdaşlığın, həmçinin qlobal pandemiyaya qarşı mübarizə üzrə Ümumdünya Səhiyyə Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı və digər beynəlxalq təşkilatlar çərçivəsində birbaşa əlaqələrin önəmi qeyd edilib.

# Səhiyyə Nazirliyinin rəsmiləri Xocalı soyqırımı qurbanlarının xatirəsini yad etdilər




**Səhiyyə naziri və nazirliyin kollegiya üzvləri Xocalı faciəsinin 29-cu ildönümündə Bakının Xətai rayonunda Xocalı soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış abidəni ziyarət ediblər.**

Xocalı soyqırımı Azərbaycan tarixinə ən dəhşətli və faciəli səhifələrdən biri kimi daxil olub, bəşər tarixində ən amansız və qəddar kütləvi terror aktlarından biri kimi yaddaşlara yazılıb. Xocalı soyqırımı nəticəsində 63-ü uşaq, 106-sı qadın, 70-i qoca olmaqla, 613 Xocalı sakini qətlə yetirilib, 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirib. Düşmən gülləsindən 76-sı uşaq olmaqla, 487 nəfər yaralanıb. 1275 nəfər əsir götürülüb, onlardan 150 nəfərinin, o cümlədən 68 qadın və 26 uşağın taleyi bu günədək məlum deyil.

# Azərbaycanda 273 mindən çox vətəndaşa COVID-19 əleyhinə peyvənd vurulub

**Azərbaycan Respublikasında yeni koronavirus infeksiyasına qarşı yanvarın 18-dən başlanan vaksinasiya kampaniyası getdikcə geniş vüsət alır. Fevralın sonunda gündəlik peyvəndləmə sayı 17 minə çatıb.**

«Koronavirusinfo.az» saytının yaydığı məlumata görə, hazırkı dövrədək ölkəmizdə koronavirus infeksiyasına qarşı 273 198 nəfər peyvənd olunub.

Vaksinasiya ölkənin bütün rayonlarında uğurla davam etdirilir.

Qeyd edək ki, «Azərbaycan Respublikasında COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün Vaksinasiya Strategiyası"-na uyğun olaraq, ölkə üzrə peyvəndlənmə prosesi mərhələli şəkildə aparılır. Strategiyaya əsasən, ilkin mərhələdə tibb işçiləri, əks-epidemik tədbirlərə cəlb olunmuş hüquq-mühafizə orqanları heyəti, 65 yaşdan yuxarı şəxslər peyvənd edilib. Növbəti mərhələdə, fevralın 17-dən etibarən isə 50 yaş və daha yuxarı şəxslərin COVID-19 xəstəliyinə qarşı vaksinasiyasına başlanıb.

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, həmin əhali qruplarından olan və peyvənd etdirmək istəyən şəxslər https:randevu-.its.gov.az saytına daxil olaraq, «COVID-19 vaksin randevu» elektron xidmətindən istifadə etməklə koronavirus xəstəliyi əleyhinə vaksinasiya üçün onlayn qaydada növbə götürməlidirlər. Bunun üçün «COVID-19 vaksin randevu» elektron xidmətində vətəndaş ilk olaraq şəxsiyyət vəsiqəsinin seriya nömrəsini və FİN kodunu daxil edib «Yoxla» düyməsinə basmalıdır. Bundan sonra, vətəndaş təqdim olunan siyahıdan peyvənd məntəqəsini, randevu tarixini və saatını seçib, mobil nömrəsini daxil etməlidir. Qeydiyyat başa çatdıqdan sonra, daxil edilən mobil nömrəyə növbənin qeydə alınması ilə bağlı mesaj göndərilir. Mesajda birinci dozanın vurulacağı tarix, saat və məkan qeyd olunur.



Qeyd edək ki, peyvəndin birinci dozası vurulduqdan 28 gün sonra ikinci dozanın vurulması üçün təkrar qeydiyyatdan keçməyə ehtiyac yoxdur. Çünki ilkin müraciət zamanı artıq ikinci doza üçün də eyni saat aralığına və məkana avtomatik elektron növbə verilir. Vətəndaş peyvəndləmə vaxtını və ya məntəqəni dəyişmək istədikdə yenidən qeydiyyatdan keçməlidir. Təyin olunan vaxtda tibb müəssisəsinə yaxınlaşdıqda vətəndaş qeydiyyatçıya şəxsiyyət vəsiqəsini təqdim etməlidir.

Həmçinin bildirək ki, elektron xidmət vasitəsilə qeydiyyatdan keçməkdə çətinlik çəkən şəxslər ərazi üzrə poliklinikaya zəng edərək qeydiyyatçıya kimliyi barədə məlumat verəndə qeydiyyatçı həmin şəxs üçün sözügedən elektron xidmət vasitəsilə onlayn növbənin götürülməsini təmin edir.

# «Gallup International»: Azərbaycanda əhali hökumətin pandemiyaya qarşı mübarizəsindən razıdır

**Azərbaycanda COVID-19 pandemiyası ilə mübarizə sahəsində atılan addımlar və əldə olunan nəticələr ölkə əhalisi tərəfindən məmnunluqla qarşılanır. Keçirilən sosioloji tədqiqatlar sübut edir ki, vətəndaşlar onların təhlükəsizliyi və sağlamlığı istiqamətində görülən kompleks tədbirləri yüksək qiymətləndirirlər.**

Bunu nüfuzlu «Gallup International» təşkilatının dünyanın 47 ölkəsində keçirdiyi qlobal «İlin yekunları» araşdırması da təsdiqləyir. Tədqiqatın nəticələrinə əsasən, vətəndaşların hökumətin pandemiya ilə mübarizəsindən razılıq səviyyəsinə görə Azərbaycan liderlər sırasındadır. Belə ki, Azərbaycanda əhalinin böyük əksəriyyəti hökumətin koronavirusla bağlı yaranmış vəziyyətin öhdəsindən uğurla gəldiyi qənaətindədir.

Tədqiqata görə, ilk iki yerdə Vyetnam və Cənubi Koreya qərarlaşıb – bu ölkələrdə əhalinin 90-100 faizi hökumətin tədbirlərindən razıdır. Hindistan və Azərbaycanda isə rəyi soruşulanların 86 faizi bu məsələdə hökumətə dəstək ifadə edib.

Qeyd edək ki, sorğuda 47 ölkədən 44 mindən artıq insan iştirak edib.

2010-cu ildən Oxford Universitetinin nəzdində fəaliyyət göstərən «Blavatnik School of Government» də bu istiqamətdə sosioloji tədqiqat aparıb. Araşdırma çərçivəsində 2020-ci ilin martından başlayaraq dünyanın 180-dən çox ölkəsinin COVID-19 ilə bağlı siyasətinə dair xüsusi indeks hazırlanır və gündəlik olaraq yenilənir.

Bu il yanvarın 1-nə olan nəticələrə görə, Azərbaycan bu indeks üzrə 84,26 bal toplayaraq, Gürcüstan, Yunanıstan, Honduras, İtaliya, Liviya, Hollandiya və Venesuela ilə birlikdə 4-11-ci yerləri bölüşür. Ölkəmizin bu indeksdə ən yüksək reytinqi 2020-ci ilin avqustunda Honduras və Omandan sonra 93,52 bal ilə 3-cü yerdə qərarlaşması olub.

# «The New York Times»: Azərbaycan COVID-19-a yoluxma statistikasının sürətlə azaldığı lider ölkələr sırasındadır




**Dünyanın bir sıra dövlətlərində, o cümlədən Azərbaycanda COVID-19 virusuna qarşı vaksinasiya proqramları sürətlə həyata keçirilir. Azərbaycan son 28 gün ərzində koronavirus (COVID-19) infeksiyasına yoluxma hallarının azalmasına görə dünyanın lider ölkələri sırasında yer alıb.**

AZƏRTAC xəbər verir ki, bu barədə «The New York Times» qəzetində çap olunan məqalədə deyilir. Yazıda bildirilir ki, son 28 gün ərzində Azərbaycanda koronavirus infeksiyasına yoluxanların sayı 44 faiz azalıb.

## ÜST Azərbaycanın bölgələrində psixi sağlamlığa və psixososial dəstəyə töhfə verir

**Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) ölkə nümayəndəliyi Azərbaycan hökuməti ilə tərəfdaşlıq çərçivəsində sosial işçilər və həssas qruplarla işləyən tibb işçiləri üçün «Əsas psixososial dəstək və psixoloji ilk yardım» mövzusunda təlim sessiyalarını davam etdirir.**

Fevral ayında Tərtər, Bərdə, Ağcabədi, Ağdam və Beyləqan rayonlarında keçirilən təlimlərə təxminən 50 sosial işçi qatılıb.

Bu proqram birbaşa həssas qruplarla işləyən xidmət təminatçılarının psixososial dəstək və psixoloji ilk yardım üzrə bilik və bacarıqlarını təkmilləşdirməyi nəzərdə tutur. Bundan əlavə, iştirakçılar proqram çərçivəsində çətin vəziyyətlərdə işləmək üçün vacib olan və emosional tükənmə sindromunun qarşısını ala biləcək özünəqulluğu da öyrənirlər.

Qeyd edək ki, təlimlər Səhiyyə Nazirliyinin Psixi Sağlamlıq Mərkəzi və Sosial Xidmətlər Agentliyinin təlimçiləri ilə birlikdə aparılır.

İlkin səhiyyə mütəxəssisləri, sosial işçilər və s. kimi ön cəbhə işçiləri üçün əsas psixososial dəstək və psixoloji ilk yardım üzrə təlim proqramının bütün ölkə üzrə davam etdirilməsi planlaşdırılır.

## Azərbaycanlı həkimlər ÜST-nin sertifikatlaşdırma proqramında iştirak ediblər

**Azərbaycanlı həkimlər Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) «Səhiyyə sistemində dərmanlara, COVID-19 və digər peyvəndlərə effektiv ölkələrarası nəzarət və monitorinqin gücləndirilməsi» mövzusunda sertifikatlaşdırma proqramında iştirak ediblər.**




Doqquz azərbaycanlı həkim onlayn formada baş tutmuş təlimi başa vuraraq imtahanlardan uğurla keçib və ÜST-nin sertifikatını əldə edib.

Hazırda COVID-19-a qarşı peyvəndin hazırlanması və tətbiqi virusla mübarizədə çox vacib vəzifəyə çevrilib. Artıq bir sıra ölkələrdə, o cümlədən Azərbaycanda, peyvəndlərin vurulmasına başlanılıb. Peyvəndləmə zamanı təhlükəsizlik məsələləri, mümkün yan təsirlərin vaxtında müəyyənləşdirilməsi və aradan qaldırılması çox önəmlidir. Bununla əlaqədar olaraq, yan təsirlərin müəyyənləşdirilməsi və qeydiyyatı üzərində nəzarəti gücləndirmək üçün ÜST farmakonəzarətlə bağlı ölkələrarası təlim təşkil edib və təlimdən sonrakı imtahanda Azərbaycan təmsilçiləri iştirakçı ölkələr arasında ən yüksək nəticə əldə ediblər.

«Peyvənd və ya dərmanların klinik sınaqlarda təhlükəsiz olduğu sübut edildikdən sonra onların real həyat şəraitində də təhlükəsiz və təsirli olmağa davam etdiyini izləmək çox vacibdir», – deyə təlimi uğurla başa vuran həkimlərə sertifikatlarını təqdim edən ÜST-nin Azərbaycandakı nümayəndəsi Hande Harmancı bildirib. Farmakonəzarətin məhz bunu həyata keçirdiyini söyləyən ÜST-nin nümayəndəsi əlavə edib ki, buna görə də farmakonəzarət sahəsində çalışan tibb işçilərinin biliklərinin mütəmadi olaraq yenilənməsi çox önəmlidir.

Tədbirdə həmçinin ÜST-nin Avropa regional ofisinin təmsilçisi Oleksandr Polişçuk və Azərbaycandakı nümayəndəliyinin eksperti Cəvahir Süleymanova çıxış ediblər.

Sertifikat alan həkimlər də öz növbəsində təlim proqramı və əldə etdikləri yeni biliklər barədə fikirlərini bölüşüblər.

## Orta məktəblərdə sağlamlığın qorunması ilə bağlı sorğu keçiriləcək

**Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi (İSİM) Təhsil Nazirliyi ilə əməkdaşlıq çərçivəsində, sağlamlığın qorunması ilə bağlı məlumatlılığın artırılması məqsədilə orta məktəblərdə sorğu keçirir.**

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, fevral-mart ayları ərzində şagirdlər və məktəb kollektivləri arasında keçiriləcək sorğu Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) ekspertləri tərəfindən tərtib olunan xüsusi anket vasitəsilə aparılacaq. Sorğu məktəb mühitini sağlamlaşdırmaq, şagirdlər və məktəb kollektivi arasında sağlam həyat tərzini təbliğ və təşviq etmək məqsədi daşıyır.

Ölkə üzrə 9 iqtisadi rayonu əhatə etməklə, Təhsil Nazirliyinin müəyyənləşdirdiyi 25 məktəbdə aparılacaq sorğu ÜST tərəfindən dəstəklənən «Sağlamlığı təşviq edən məktəblər» layihəsi çərçivəsində həyata keçiriləcək.

Siyahıda yer alan təhsil müəssisələri arasında yeganə inklüziv məktəb olan Bakı şəhəri 202 saylı tam orta məktəbdə sorğuya artıq start verilib. Şagirdlər və kollektiv sorğuda fəal iştirak ediblər.

Qeyd edək ki, “Sağlamlığı təşviq edən məktəblər” şəbəkəsi ÜST-nin Avropa regionu üzrə 45 ölkəsində səhiyyə və təhsil sahəsinin inkişaf siyasətində ayrılmaz hissəyə çevrilib. Azərbaycan 2017-ci ildən bu şəbəkənin üzvüdür. Məktəblərdə sağlamlığın təbliğini, normal fiziki inkişafın təmin edilməsini, uşaqların sağlamlığının qorunmasını təşviq edən bu şəbəkənin əsas məqsədi məktəblilərin təhsil və sosial məqsədlərinə daha tez nail olmalarına yardım göstərməkdir.

## ÜST Azərbaycanın münaqişədən zərər çəkmiş bölgələrində infeksiyaların profilaktikası missiyası həyata keçirib

**COVID-19 pandemiyasına qarşı mübarizədə infeksiyaların profilaktikası və nəzarət tədbirlərinə riayət edilməsi vacibdir. Bu sahədəki ehtiyacların ödənilməsinin əhəmiyyətini nəzərə alaraq, Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Azərbaycan nümayəndəliyi Səhiyyə Nazirliyi və TƏBİB-lə birlikdə ölkəmizin münaqişədən zərər çəkmiş bölgələrində müvafiq standartların qiymətləndirilməsi üçün missiya həyata keçirib. Missiya Avropa İttifaqı tərəfindən maliyyələşdirilən və ÜST-nin Azərbaycan nümayəndəliyi tərəfindən icra olunan Sağlamlıq üçün Həmrəylik Təşəbbüsü layihəsi çərçivəsində gerçəkləşdirilib.**

ÜST-nin Azərbaycan nümayəndəliyindən bildirilib ki, missiya zamanı Bərdə, Tərtər, Ağdam, Ağcabədi və Füzuli rayonlarında yerləşən tibb müəssisələrində xəstələrin skrininqi və triajı, reanimasiya, doğum, sterilizasiya və cərrahiyyə şöbələrinin fəaliyyəti, həmçinin tibbi tullantıların idarə olunmasına dair tədbirlər qiymətləndirilib.

Missiya çərçivəsində qeyd edilən rayonlardakı xəstəxanaların direktorları ilə infeksiyaların qarşısının alınması və nəzarət tədbirləri sahəsindəki ehtiyacların qarşılanmasında mümkün dəstək yolları müzakirə edilib. ÜST ekspertləri tərəfindən bu sahədəki standartların yüksəldilməsinə dair məsləhətlər verilib. Bunula yanaşı, 100-dək səhiyyə işçisinə, o cümlədən həkim, epidemioloq, tibb bacısı və digər tibb işçilərinə müzakirələr zamanı müəyyən edilmiş prioritet istiqamətlər üzrə təlim keçilib. Təlim bir neçə sessiya şəklində, mövcud karantin məhdudiyyətlərinə, infeksiyaların profilaktikası və nəzarət tədbirlərinin tələblərinə uyğun təşkil edilib.

## Avropa İttifaqı və ÜST Azərbaycanda COVID-19-a qarşı səyləri birləşdirir

**Avropa İttifaqı və Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Avropa regional ofisi Azərbaycanda COVID-19-la bağlı peyvəndləməni dəstəkləmək üçün birlikdə çalışacaq. Avropa İttifaqının maliyyələşdirdiyi, ÜST tərəfindən həyata keçirilən layihə COVID-19-la bağlı peyvəndləmənin bütün mərhələlərini əhatə edəcək və eyni zamanda, ölkənin immunizasiya sisteminin gücləndirilməsi üçün önəmli proqram rolunu oynayacaq.**

Layihə ÜST-nin Avropa regionundakı altı ölkədə COVID-19-la bağlı peyvəndləməyə hazırlıq, peyvəndləmənin həyata keçirilməsi və monitorinqini dəstəkləmək məqsədilə irəli sürülmüş, Avropa İttifaqı tərəfindən maliyyələşdirilən 40 milyon avroluq təşəbbüs çərçivəsində həyata keçiriləcək. ÜST-nin icra etdiyi layihə qurumun əsas yerli tərəfdaşları olan Səhiyyə Nazirliyinə və TƏBİB-ə dəstək məqsədi daşıyır.

«Bu layihə Avropa İttifaqının tərəfdaşı olan ölkələrdə, o cümlədən Azərbaycanda peyvəndləmənin sürətlə aparılmasına yardımçı olacaq. Biz hamımız ümidlə və səbirsizliklə gözləyirik ki, peyvəndlər qapanmalarla yadda qalan ötən ilin yeni ildə normal həyata qayıdışa çevrilməsinə kömək edəcək. Biz ötən il qısa zamanda ölkəyə fərdi mühafizə vasitələri və tibbi ləvazimat gətirmək üzrə birgə proqramlar həyata keçirdik. Sosial-iqtisadi dirçəlişə dəstək göstərməyə yönəltdiyimiz bu əməkdaşlığın davamı kimi, «Team Europe» təşəbbüsü çərçivəsində, ÜST ilə birgə və tərəfdaşlarımızla həmrəylikdə çalışmaqdan qürur hissi keçiririk» – deyə, Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas qeyd edib.

«Yanvar ayından Azərbaycanda COVID-19-a qarşı peyvəndləmə başlayıb. Multiplatformalı yanaşmanı nəzərə alaraq, Avropa İttifaqı və ÜST ilə kommunikasiya, peyvəndlərin logistikası və soyuq zəncir qaydası ilə saxlanılması istiqamətində həyata keçirilən əməkdaşlıq mühüm əhəmiyyətə malikdir». Bunu TƏBİB-in Xəstəliklərin profilaktikası və kontrolu şöbəsinin müdiri Yaqut Qarayeva bildirib.

ÜST-nin Azərbaycandakı nümayəndəsi və ölkə ofisinin rəhbəri Hande Harmancı isə söyləyib ki, «Peyvəndlər pandemiyaya qarşı mübarizənin ön cəbhəsində mübarizə aparanlara və xəstəliyin ağır nəticələrinin qorxusu altında yaşamağa məcbur olan yüksək risk qruplarındakı insanlara ümid və qoruma vəd edir. Bu səxavətli dəstək sayəsində ÜST peyvəndlərin ən çox ehtiyacı olanlara ən qısa zamanda və daha effektiv şəkildə çatdırılmasını təmin etmək üçün Azərbaycan hökuməti ilə əməkdaşlığını gücləndirə bilər».

Ayrılmış vəsait əvvəlcə peyvəndləməyə hazırlıq işlərini və peyvəndlərin gətirilməsinin ilk mərhələsini dəstəkləyəcək. Avadanlıq və təchizat məsələləri, səhiyyə işçilərinin təlimi və məlumat kampaniyaları kimi strateji sahələrdəki ehtiyacların qarşılanmasına xüsusi diqqət yetiriləcək.

Layihə Avropa İttifaqı və ÜST-nin COVID-19 pandemiyasına cavab tədbirlərinə davam etməkdə olan dəstəyinin, o cümlədən Avropa İttifaqının tərəfdaş ölkələrdə virusa qarşı mübarizə və ən həssas qrupların ehtiyaclarının daha yaxşı qarşılanmasına yönəldilmiş 35 milyon avroluq Sağlamlıq üçün Həmrəylik Təşəbbüsünün davamıdır.

# Tibb Universitetində yeni texnoloji avadanlığın təqdimatı olub

**Azərbaycan Tibb Universitetində (ATU) tədris prosesinin yaxşılaşdırılması, praktik dərslərin keyfiyyətinin artırılması üçün işlər davam etdirilir. Tələbələrin müasir standartlara uyğun təhsil almasını təmin etmək üçün praktiki məşğələlərdə son model texnologiya əsasında hazırlanmış tibbi avadanlıqlardan istifadə olunur.**

Bu günlərdə ATU-nun İnsan anatomiyası və tibbi terminologiya kafedrası, həmçinin Tibbi mikrobiologiya və immunologiya kafedrası üçün əldə olunmuş yeni unikal avadanlıqların təqdimatı keçirilib.

Təqdimat mərasimlərində Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli, ATU-nun İnsan anatomiyası və tibbi terminologiya kafedrasının professoru Vaqif Şadlinski, kafedra müdiri vəzifəsini müvəqqəti icra edən, dosent Anar Abdullayev, Tibbi mikrobiologiya və immunologiya kafedrasının müdiri, professor Həqiqət Qədirova, universitetin Tədris şöbəsinin müdiri, dosent Samir Cavadov, Təsərrüfat və təchizat şöbəsinin müdiri Elçin Əlizadə iştirak ediblər.

Professor Gəray Gəraybəyli ATU-nun İnsan anatomiyası və tibbi terminologiya kafedrasında yeni anatomik mulyajlara baxış keçirib. Bildirilib ki, ABŞ-ın «SynDaver» şirkətinin istehsal etdiyi bu sintetik «bədən»dəki orqanlar canlı insanın əzələ, sümük-qığırdaq, damar-sinir elementlərinə maksimal dərəcədə uyğundur. Onların ölçüləri və xarici görünüşü insan orqanları ilə eynidir. Sintetik meyit mulyajından insan anatomiyası fənninin tədrisi zamanı əksər bölmələrin izahında istifadə etmək olar. Anatomik mulyajda istifadə olunan əzələlər, daxili orqanlar, damar və sinirlər canlı toxumaların fiziki-kimyəvi, termik və mexaniki xüsusiyyətlərini imitasiya edir. Sintetik meyit modelinə sinir və damar sisteminin əsas morfoloji elementləri daxildir. Ümumiyyətlə, «SynDaver» şirkəti insan və heyvan toxumalarının, eləcə də



bədən hissələrinin və tam bədənin ən mürəkkəb sintetik analoqlarının istehsalı ilə məşhurdur. Bu tip texnologiyalar anatomiya dərsləri, klinik-cərrahi məşğələlər zamanı insan meyitlərini əvəz etməyə imkan verir. Universitetin tələbələri bu cür mulyajlar üzərində açıq ürək əməliyyatlarına kimi müxtəlif növ əməliyyatların aparılmasını məşq edib öyrənə bilərlər.

Qeyd olunub ki, «SynDaver» şirkətinin təqdim etdiyi məhsulların işlədilməsi və saxlanılması xüsusi diqqət və məsuliyyət tələb edir. Sintetik insan bədənləri ayda 2 dəfə xüsusi vannalarda tələb olunan qaydada yuyulub-təmizlənməlidir. «SynDaver» mulyajlarına yalnız əlcəklə toxunmaq olar. İstifadə edilən xlorlaşdırılmış qranulların mulyajla birbaşa təmasına yol vermək olmaz. Hansısa prosedurun düzgün yerinə yetirilməməsi mulyajın keyfiyyətinə mənfi təsir göstərə bilər.

Rektor həmçinin Tibbi mikrobiologiya və immunologiya kafedrasının tədris və elmi laboratoriyaları üçün alınmış avadanlıqlarla da tanış olub. Qeyd edilib ki, kafedrada 2 tədris otağı müasir tələblərə və infeksion nəzarət qaydalarına cavab verən tərzdə qurulub. Həmin tədris otaqlarında hər bir tələbə xüsusi quruluşlu laborator masalarında lazımi ləvazimatlarla təchiz edilmiş fərdi iş yeri ilə təmin olunur. İş yerində mikroskop, spirt lampası, bakterioloji ilgəklər, sınaq və əşya şüşələri, rəngləmə dəsti və s. var. Bundan əlavə, həmin otaqlarda praktik işin təqdimatını keçirmək, animasiya və ya tədris filmi vasitəsilə nümayiş etdirmək üçün kompüter və proyektor da quraşdırılıb. Daha 3 otaqda da tələbələr üçün fərdi iş yerləri yaradılıb və zəruri ləvazimatlarla təchiz edilib. Kafedranın nəzdindəki digər 11 tədris otağı isə bu cür iş masaları ilə qismən təchiz olunub.



# ATU Türkiyə universitetləri ilə əməkdaşlığı genişləndirir

**Azərbaycan Tibb Universiteti (ATU) ilə Türkiyənin Selçuk Universitetinin rəhbər şəxsləri arasında onlayn görüş keçirilib.**

ATU-nun rektoru, professor Gəray Gəraybəyli əvvəlcə 44 günlük Vətən müharibəsi dövründə Türkiyənin Azərbaycana verdiyi güclü dəstəyə görə təşəkkürünü bildirib. O, Selçuk Universitetinin rektoru, professor Metin Aksoyu yeni təyinatı münasibətilə təbrik edib və Azərbaycanda onu görməkdən məmnun olacağını deyib.

Gəray Gəraybəyli ATU-nun bir çox universitetlərlə qarşılıqlı protokollar əsasında əməkdaşlıq etdiyini xatırladıb, Selçuk Universiteti ilə də belə bir sazişin faydalı olacağını söyləyib. Qeyd edib ki, ATU və Selçuk Universiteti tədris, elm və bu kimi müxtəlif istiqamətlər üzrə əməkdaşlıq etmək potensialına malikdir. Həmçinin iki ali məktəb arasında tələbə, rezident və müəllim mübadiləsinin aparılması da önəmlidir. Professor G.Gəraybəyli bütün mümkün istiqamətlərdə ATU-nun əməkdaşlığa tam hazır olduğunu bildirib.

Selçuk Universitetinin rektoru, professor Metin Aksoy Türkiyə və Azərbaycan arasında mövcud qardaşlıq münasibətlərinin hər sahəyə sirayət etdiyini söyləyib. İki universitet arasında müxtəlif istiqamətlər üzrə əməkdaşlığa ehtiyac olduğunu hesab edən rektor M.Aksoy rəhbərlik etdiyi ali məktəb haqqında məlumat verib. O, Tibb Universitetinə hədiyyə edilən 30 tibb kitabını əməkdaşlığın başlanğıcı kimi qiymətləndirib.

ATU-nun beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Orxan İsayev isə universitetlər arasında əməkdaşlığın istiqamətləri, sazişə daxil ediləcək bəndlər haqqında ətraflı danışıb. Prorektor Tibb Universitetinin fakültələri, tədris proqramları, yeni açılan tibb bacısı və fizioterapist ixtisaslarının tədrisi haqqında da məlumat verib.

Azərbaycanın Türkiyədəki səfirliyinin təhsil müşaviri Nəcibə Nəsibova da çıxışında əməkdaşlığın vacibliyini qeyd edərək, rezidentlərin mübadiləsi, tələbələrin ortaq proqramlara qoşulması kimi məsələlərin təşkili haqqında danışıb.

Görüşdə ATU və Selçuk Universiteti arasında imzalanacaq əməkdaşlıq sazişinin digər müddəaları da ətraflı müzakirə olunub.

ATU-nun mətbuat xidmətindən onu da bildiriblər ki, onlayn görüşdən sonra Selçuk Universiteti tərəfindən Tibb Universitetinə 30 kitab hədiyyə olunub. Bunlar universitetdə yeni tədris olunmağa başlanılan tibb bacısı ixtisası ilə bağlı dərs proqramını əhatə edən dərsliklərdir. Tibb Universitetində tədris prosesinə böyük töhfə olan həmin kitablar tələbələrin istifadəsi üçün universitetin kitabxanasına verilib.

# Tibb Universitetinin rektoru Pakistan səfiri ilə görüşüb

**Azərbaycan Tibb Universitetinin (ATU) rektoru, professor Gəray Gəraybəyli və Pakistan İslam Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Bilal Haye ATU ilə Pakistanın ali məktəbləri arasında əməkdaşlıq əlaqələrinin qurulması və gücləndirilməsi istiqamətində atıla biləcək addımları müzakirə ediblər.**



Universitetin mətbuat xidmətindən verilən məlumata görə, professor G.Gəraybəyli Vətən müharibəsi zamanı göstərilən mənəvi dəstək üçün səfirə minnətdarlığını bildirib.

Görüşdə Azərbaycan və Pakistan arasında müxtəlif sahələrdə uzun illərə söykənən münasibətlərin tibb sahəsi üzrə də sürətli inkişafından söz açılıb və bu əməkdaşlığın genişləndirilməsi barəsində fikir mübadiləsi aparılıb.



Görüş zamanı rektor son illər ATU-nun beynəlxalq əlaqələrinin genişləndiyini, əməkdaşlıq qurulan ali məktəblərin sayının artdığını bildirib. O, Tibb Universitetində 37 ölkədən 2526 nəfər xarici vətəndaşın, o cümlədən Pakistandan 24 tələbənin təhsil aldığını deyib. Rektor pakistanlı tələbə sayının artırılması, gələcəyin həkimlərinin mübadiləsinin təşkil olunması, birgə elmi araşdırmaların aparılması üçün səyləri gücləndirməyin vacib olduğunu bildirib.

Pakistanın ölkəmizdəki səfiri Bilal Haye də öz növbəsində Azərbaycan hökumətini və xalqını böyük qələbə münasibətilə təbrik edib. Səfir Qarabağ məsələsində Pakistanın həmişə Azərbaycanın haqlı və ədalətli mövqeyini dəstəklədiyini bildirib. Bilal Haye həmçinin Azərbaycan Tibb Universiteti ilə Pakistanın ali məktəbləri arasında əməkdaşlıq əlaqələrinin qurulması və gücləndirilməsi, qarşılıqlı layihələrin icrası ilə bağlı atıla biləcək addımlardan danışıb.

Görüşün sonunda ötən il Azərbaycan Tibb Universitetinin 90 illik yubileyini qeyd etdiyini bildirən rektor səfirə ATU-nun 90 illik yubiley medalını təqdim edib.

# ÜST Şamaxı rayonunda ilkin səhiyyə xidmətləri üzrə «PROACT-Qayğı» layihəsinə başlayıb

**«PROACT-Qayğı» layihəsinin əsas tərəfdaşlarının iştirakı ilə Şamaxı rayonunda layihənin icrasına başlanılıb.**

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Azərbaycan nümayəndəliyindən verilən məlumata görə, «PROACT-Qayğı» layihəsi COVID-19 kontekstində zəruri səhiyyə xidmətlərinin göstərilməsində yarana biləcək kəsintilərin qarşısını almaq üçün ilkin səhiyyə sisteminin gücləndirilməsi məqsədi daşıyır. Həmçinin layihə Azərbaycan üçün məqsədəuyğun ilkin səhiyyə sistemi modelinin yaradılmasını nəzərdə tutur ki, bu model genişləndirilərək ölkənin digər ərazilərində də tətbiq edilə bilər. ÜST-nin Azərbaycandakı nümayəndəliyi tərəfindən həyata keçirilən layihə ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyi (USAID), Böyük Britaniyanın «UKaid», Rumıniyanın «RoAid» təşkilatları və «UHC-Əməkdaşlıq» təşəbbüsü (ÜST-nin tərəfdaşları ilə ortaq layihəsi) tərəfindən maliyyələşdirilir. ÜST-nin Azərbaycandakı nümayəndəliyi layihənin icra olunmasında Şamaxı Rayon İcra Hakimiyyəti, Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, TƏBİB, Heydər Əliyev Fondu, UNICEF və BMT-nin Əhali Fondu ilə tərəfdaşlıq edir.

«Səhiyyə işçilərimiz ağır pandemiya şəraitində öz vacib missiyalarını həyata keçirmək üçün daim bilik və bacarıqlarını inkişaf etdirməyə çalışırlar. Bu prosesdə onlara göstərilən hərtərəfli dəstəyə görə buraya toplaşmış hər kəsə Şamaxı səhiyyə işçiləri adından dərin təşəkkürümü bildirirəm», – deyə Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov bildirib. O həmçinin Şamaxıda pandemiyaya qarşı mübarizədə istifadə ediləcək geo-analitik səhiyyə xəritəsini təqdim edib və bildirib ki, rayon ərazisindəki tibb müəssisələri və oradakı bütün xidmətlər sistemləşdirilərək elektron xəritə üzərinə köçürülüb. Bu xəritə vasitəsilə məlumatlar vizuallaşdırılır və mövcud vəziyyətlə bağlı hesabatlar əldə edilir. Həmçinin




COVID-19-a yoluxma və peyvəndlənmə ilə bağlı ən son məlumatlar xəritə üzərində görüntülənir.

«USAID Azərbaycanda ilkin səhiyyənin gücləndirilməsi və səhiyyə işçiləri üçün təlim layihələrini dəstəkləməkdən qürur hissi keçirir. Səhiyyə işçiləri COVID-19-a qarşı mübarizənin ön cəbhəsində dayanırlar. Bu, həkimlərin, tibb bacıları və qardaşlarının, digər səhiyyə işçilərinin bizim gündəlik həyatımızda, eləcə də iqtisadi inkişafın təmin edilməsində nə qədər vacib rol oynadıqlarını sübut edir». Bunu USAID-nin Azərbaycandakı missiya direktoru Caydev Sinqx bildirib. O həmçinin əlavə edib ki, ABŞ hökuməti pandemiyanın sonlandırılması üçün Azərbaycan hökuməti ilə birgə çalışmağa davam edəcək.

«PROACT-Qayğı» layihəsi vasitəsilə Şamaxı əhalisi ixtisaslı heyət tərəfindən təmin edilən, diaqnostika və müalicə üçün gərəkli müasir avadanlıqla təchiz edilmiş keyfiyyətli ilkin səhiyyə xidmətinə çıxış əldə edəcək,» – deyə ÜST-nin Azərbaycandakı nümayəndəsi Hande Harmancı qeyd edib. O bildirib ki, layihənin Şamaxıda yaratmağa çalışdığı güclü ilkin səhiyyə xidməti insanların daha uzun və daha sağlam həyat yaşamasına, səhiyyə xərclərinin aşağı düşməsinə, səhiyyəyə ayrılan vəsaitin optimallaşdırılmasına və iqtisadi məhsuldarlığın artmasına gətirib çıxaracaq.

UNICEF-in Azərbaycandakı nümayəndəliyinin rəhbər müavini Min Yuan bildirib ki, «UNICEF ÜST ilə əməkdaşlıqda Azərbaycanda ilkin səhiyyə sisteminin vacib komponenti olan ana və uşaq sağlamlığının yaxşılaşdırılması üçün «PROACT-Qayğı» layihəsinə töhfə verəcək». O söyləyib ki, ilkin səhiyyədə ana və uşaq sağlamlığı və qidalanma ilə bağlı zəruri səhiyyə xidmətlərinin göstərilməsi sahəsində yerli səhiyyə işçilərinin bilik və bacarıqlarının artırılması üçün UNICEF-in mövcud təlim paketləri Şamaxı səhiyyə işçilərinə təqdim ediləcək.

Heydər Əliyev Fondunun Beynəlxalq əlaqələr departamentinin rəhbəri, Milli Məclisin Səhiyyə komitəsinin üzvü Soltan Məmmədov «PROACT-Qayğı» layihəsinin tərəfdaşlarına Şamaxıda bu layihənin həyata keçirilməsi üçün təşəkkürünü bildirib və layihənin Azərbaycanın digər rayonlarında da tətbiq edilməsinə dəstəyini ifadə edib. O söyləyib ki, Heydər Əliyev Fondu artıq Şamaxıda bir sıra ilkin səhiyyə müəssisəsi inşa edib və bundan sonra da ilkin səhiyyənin gücləndirilməsi ilə bağlı təşəbbüsləri dəstəkləməyə davam edəcək.

Tədbir iştirakçıları bu il fevralın 4-dən etibarən yerli tibb işçilərinə təlim keçməyə başlayan Şamaxı Təlim Mərkəzini də ziyarət ediblər. USAID-in maliyyə və ÜST-nin texniki dəstəyi ilə UNICEF tərəfindən həyata keçirilən «PROACT-Təlim» layihəsi çərçivəsində yaradılan mərkəz mayın 15-nə qədər Şamaxı və ətraf rayonlardan olan 400-ə qədər tibb işçisinə ilkin səhiyyə xidmətləri və COVID-19-a cavab tədbirləri sahəsində təlim keçəcək. Təlim mərkəzi daha sonra Şamaxı Mərkəzi Rayon Xəstəxanası nəzdində yerli təlim qurumu kimi fəaliyyətini davam etdirəcək.

«PROACT-Qayğı» layihəsinin tərəfdaşları həmçinin Çarhan və Quşçu kəndlərindəki kənd həkim məntəqələrinə baş çəkiblər. Bu kəndlərdə yerli tibb işçiləri və əhali ilə tanış olmaq imkanı əldə edən layihə tərəfdaşları onlarla ilkin səhiyyə sahəsindəki ehtiyaclarını müzakirə ediblər.

**2000-dən artıq yerli səhiyyə işçisinin COVID-19 pandemiyasına qarşı profilaktik və cavab tədbirlər üzrə potensialının artırılması üçün həyata keçirilən PROACT Təlim Proqramı çərçivəsində BMT Uşaq Fondunun (UNICEF) Azərbaycandakı nümayəndəsi Edvard Karvardin, ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAID) Azərbaycan üzrə missiyasının direktoru Caydev Sinqx və layihə meneceri Emin Məmmədli, Tibbi Ərazi Bölmələrinin İdarəetmə Birliyinin (TƏBİB) Tibbi xidmətlər departamentinin rəhbəri Firəngiz Əliyeva Sumqayıt şəhər 1 saylı Doğum Evində olublar.**

## PROACT Təlim Proqramı çərçivəsində Sumqayıt şəhər 1 saylı Doğum Evi ziyarət edilib

USAID tərəfindən maliyyələşdirilən, Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) texniki dəstəyi və TƏBİB ilə birgə həyata keçirilən proqramın məqsədi infeksiyaların profilaktikası və onlara qarşı mübarizə; COVID-19



xəstəliyi hallarının fərdi idarə olunması; əsas reanimatoloji tədbirlər; geniş reanimatoloji tədbirlər; xəstəxanaların fövqəladə hallara hazırlığı; tibbi nəzarət; fəal kütləvi müayinə (skrininq); testləşdirmə; təmas qrupların epidemioloji izlənilməsi; risklər haqqında məlumatlandırma kimi mövzularda məlumatlılığın artırılmasıdır. Növbəti dörd ayda müasir informasiya texnologiyaları və tibbi avadanlıqla təchiz olunmuş 12 rayon tibb müəssisəsində Təlim Mərkəzinin açılması planlaşdırılır.

Bu proqram UNICEF-in, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin və Səhiyyə Nazirliyinin sıx tərəfdaşlığı üzərində qurulub.

İlk təlimçilər üçün təlimə (TÜT) ötən ilin dekabrında start verilib. Rayon təlim mərkəzlərində təlimin həyata keçirilməsinə 24 milli mütəxəssis təlimçinin cəlb edilməsi nəzərdə tutulur.

# COVAX proqramı çərçivəsində Azərbaycan 506 400 doza AstraZenecaOxford vaksini alacaq

**2021-ci ilin birinci yarısında dünyanın 145 ölkəsində təkcə COVAX proqramı çərçivəsində əhalinin ən azı 3,3 faizi peyvənd olunacaq.**

Bu barədə COVAX təşəbbüsündə iştirak edən ölkələr arasında koronavirusa qarşı vaksinlərin paylanmasının ilk aralıq proqnozunda deyilir. Bu proqnoz Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) və onun COVAX proqramı üzrə tərəfdaşları tərəfindən dərc edilib və özündə bu ilin birinci rübündə Pfizer BioNTech vaksinlərinin və ilin birinci yarısında AstraZeneca Oxford vaksinlərinin paylanması barədə məlumatı ehtiva edir.

COVID-19 əleyhinə vaksinlərin mərkəzləşdirilmiş şəkildə satın alınması və paylanması üzrə unikal təşəbbüs olan COVAX çərçivəsində hökumətlər və istehsalçılar həm zəngin, həm də aşağı gəlirli ölkələrin peyvəndlə təmin edilməsi məqsədilə əməkdaşlıq edirlər. Azərbaycan da bu təşəbbüsün üzvüdür.

Bu proqram çərçivəsində Azərbaycan 506 400 doza AstraZeneca Oxford, Gürcüstan 184 800 doza AstraZeneca Oxford və 29 250 doza Pfizer BioNTech, Ermənistan isə 146 400 doza AstraZeneca Oxford vaksini alacaq. Digər postsovet məkanı ölkələrindən Ukraynaya 2 215 200 doza AstraZeneca




Oxford və 117 000 doza Pfizer BioNTech, Moldovaya 156 000 doza AstraZeneca Oxford və 24 570 doza Pfizer BioNTech, Özbəkistana 2 640 000 doza, Tacikistana 732 000 doza, Qırğızıstana 504 000 doza AstraZeneca Oxford vaksini paylanacaq.

Vaksinlərin ölkələrə çatdırılması prosesi fevral ayının sonunda başlanacaq.

Hələ yanvar ayında ÜST milyonlarla doza Pfizer BioNTech və AstraZeneca Oxford vaksinlərinin satın alındığını elan edib. COVAX mexanizmi çərçivəsində ilin sonunadək dünya üzrə bu preparatın iki milyard dozasının paylanacağı, o cümlədən 1,3 milyard dozasının az gəlirli ölkələrə çatdırılacağı gözlənilir.

Ekspertlərin fikrincə, bu qədər vaksin səhiyyə işçiləri də daxil olmaqla ən həssas qrupları qorumaq üçün kifayət edəcək.

# Həkim-müdavimlər və həkim-rezidentlər üçün beynəlxalq onlayn təhsil imkanı yaradılıb

**Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunda (ADHTİ) diplomdansonrakı tibb təhsilinin təkmilləşdirilməsi və onun keyfiyyətinin yüksəldilməsi üçün axtarışlar aparılır, təhsilin yeni forma və metodları praktikaya daxil edilir. Görülən işlər arasında beynəlxalq təhsilə xüsusi əhəmiyyət verilir. Hazırda aparılan onlayn tədris prosesində də təhsilin həmin forması aktuallığını saxlayır.**




ADHTİ və İstanbul Mədəniyyət Universitetinin otorinolarinqologiya kafedraları arasında ümumi razılaşma əsasında həftədə bir dəfə ümumi ortaq dərslər təşkil edilir. Həmin dərslərdən bir neçəsi artıq uğurla keçirilib.

İnstitutdan verilən məlumata görə, həkim-müdavimlər və həkim-rezidentlər üçün «Gicgah sümüyü radiologiyası», «Koxlear anomaliyalar» və «Endoskopik dakriosistektomiya» mövzularında Hacəttəpə Universiteti Otorinolarinqologiya kafedrasının professoru Levent Sennaroğlunun, İstanbul Yeditepe Universiteti Radiologiya kafedrasının professoru Gazanfer Ekincinin və İnönü Universiteti Otorinolarinqologiya kafedrasının professoru Yüksel Toplunun məruzələri dinlənilib.

Dərslər qarşılıqlı razılaşma əsasında tədris ilinin sonuna qədər davam etdiriləcək.

Eyni zamanda, ADHTİ-nin Kardiologiya kafedrası Rusiya Federasiyası Tibbi Təhsil İnstitutunun Arterial hipertenziya elmi-tədqiqat şöbəsi ilə birlikdə həkim-müdavimlər və həkim-rezidentlər üçün «COVID-19 pasiyentlərində arterial hipertenziyaya nəzarət» mövzusunda vebinar keçirib. Vebinarda həmin şöbənin müdiri professor A.Konradi iştirak edib.

Bundan başqa, Həkimləri Təkmilləşdirmə İnstitutu və Marat Ospanov adına Qərbi Qazaxıstan Tibb Universitetinin Ftiziatriya kafedraları arasında ümumi razılaşma əsasında həkim-müdavimlər və həkim-rezidentlər üçün professor A.Janqriyevin iştirakı ilə «Vərəmin profilaktikası qaydaları» mövzusunda vebinar keçirilib.

İnstitutun digər kafedraları da beynəlxalq təhsilin daha geniş tətbiq olunması üzərində çalışırlar.

# Müdafiə Nazirliyi tibbi təhsili olan şəxslərin həqiqi hərbi xidmətə və işə qəbulunu elan edir

**Müdafiə Nazirliyi işğaldan azad olunmuş ərazilərdə dislokasiya olunan hərbi hissələrin tibb məntəqələrində, eləcə də həmin ərazilərdəki hospitallarda müxtəlif tibbi ixtisaslar üzrə vakant hərbi və mülki vəzifələrdə həqiqi hərbi xidmətə və işə qəbul elan edir.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, müddətli həqiqi hərbi xidməti başa vurmuş, tibbi təhsili olan, fiziki cəhətdən sağlam, 35 yaşadək kişilər və tibbi təhsili olan, fiziki cəhətdən sağlam, 35 yaşadək qadınlar, həmçinin Azərbaycan Ordusu və ya digər Silahlı Qüvvələr tərkibində hərbi həkim və ya feldşer vəzifələrində xidmət keçmiş və ehtiyata buraxılmış 40 yaşadək zabit və gizirlər hərbi xidmətə və işə qəbul olunmaq üçün müraciət edə bilərlər. Bunun üçün namizədlər Müdafiə Nazirliyinin Tibb Baş İdarəsinə və ya yaşayış yerlərinin yaxınlığında yerləşən hərbi hissələrə yanaşmalıdırlar. Vakant hərbi və mülki vəzifələrə qəbul yalnız tələb olunan tibbi ixtisaslar üzrə həyata keçiriləcək.

Namizədlər bazar və bayram günlərindən başqa hər gün saat 09:00-dan 17:00-dək müraciət edə bilərlər. Məhkumluğu olan və xidmətə uyğunsuzluqla hərbi xidmətdən ehtiyata buraxılan şəxslərin müraciətlərinə baxılmayacaq.

***Əlavə məlumat üçün:***
***Ünvan: Bakı şəhəri, Biləcəri qəsəbəsi, E.Nəcəfov küçəsi, 2A.***
***Əlaqə nömrələri: (012) 406-87-41; (051) 567-47-00.***

# AŞAĞIDAKI TİBB MÜƏSSİSƏLƏRİ GÖSTƏRİLƏN VAKANT YERLƏRƏ MÜSABİQƏ ELAN EDİR

İşğaldan azad olunmuş ərazilərdə təmizləmə əməliyyatlarının miqyasının genişləndiyini nəzərə alaraq, təhlükəsizliyin təmin olunması və baş verə biləcək bədbəxt hadisələrin qarşısının vaxtında alınması üçün Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyində (ANAMA) yenidən formalaşdırılacaq regional idarələrin (Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Xocavənd (Ağoğlan), Ağdam, Şuşa, Tərtər, Kəlbəcər, Laçın) tərkibində fəaliyyət göstərəcək həkimlər aşağıdakı vəzifələr üzrə işə dəvət olunurlar:

**— həkim-terapevt**
**— təcili yardım üzrə həkim**
**— həkim-anestezioloq-reanimatoloq**
**— həkim-travmatoloq-ortoped**
**— həkim-ümumi cərrah**

***Tələb olunan sənədlər:***

Ərizə
Şəxsiyyət vəsiqəsi
Təhsil haqqında diplom
İnternatura vəsiqəsi
Sertifikasiya şəhadətnaməsi
Əmək kitabçası

***Əlavə məlumat üçün əlaqə telefonu: (012) 561-95-42***

## Milli Onkologiya Mərkəzi

***Torakal onkologiya bölməsində:***
Elmi işçi - 1.0
(«onkologiya» ixtisasında tibb üzrə fəlsəfə doktoru)
***Patositomorfologiya laboratoriyasında:***
Kiçik elmi işçi - 1.0
***Şüa diaqnostikası bölməsində:***
Kiçik elmi işçi - 1.0

***Ünvan: H.Zərdabi küç., 79b.***
***Telefon: 537-08-11***

## Professor Gindes adına Respublika Uşaq və Yeniyetmələr üçün Vərəm Sanatoriyası

Tibb bacısı (qardaşı) - 6.0

***Ünvan: R.İmanov küç., 4***
***Telefon: 453-08-34***

## 7 nömrəli Uşaq Nevroloji Sanatoriyası

Tibb bacısı (qardaşı) - 4.0
Müalicəvi bədən tərbiyəsi üzrə təlimatçı - 1.0

***Ünvan: Ramana qəs., Zərdabi küç., 5.***
***Telefon: 451-30-05***

## «Azərbaycan Dəmir Yolu» Qapalı Səhmdar Cəmiyyəti

«Azərbaycan Dəmir Yolu» Qapalı Səhmdar Cəmiyyəti Həkim-Sanitar Xidməti Ələt Dəmir Yolu Xəstəxanası Məhdud Məsuliyyətli Cəmiyyətinə aşağıda göstərilən vakant yerlər üzrə işçilər dəvət olunurlar:

Xəstəxana üzrə - həkim - mama-ginekoloq - 1.0
Həkim-anestezioloq-reanimatoloq - 1.0
Həkim-cərrah (poliklinika üzrə) - 1.0
Həkim-oftalmoloq (poliklinika üzrə) - 1.0
Zəkim-terapevt (stasionar üzrə) - 1.0
Həkim laborant -1.0
Laborant - orta tibb heyətindən (poliklinika üzrə) - 1.0

**Əlaqə üçün telefon:**
**(012) 544-07-99**
**(051) 888-03-18;**
**(070) 988-03-18;**
***Ünvan: Bakı şəhəri, Qaradağ rayon Ələt qəsəbəsi, Park küçəsi, 1.***

## Lənkəran Şəhər Psixiatriya Xəstəxanası

Tibb bacısı (qardaşı) - 1.0

***Ünvan: Nəsimi küç., 92.***
***Telefon: (02525) 4-44-79***

## Tovuz Rayon GEM

Həkim-epidemioloqun köməkçisi - 1.0
Sanitar-feldşer - 1.0

***Ünvan: Aşağı Öysüzlü kəndi***
***Telefon: (02231) 5-69-63***

## Suraxanı rayon GEM

Həkim-epidemioloqun köməkçisi - 1.0

***Ünvan: Ş.Məhərrəmov küç., 1.***
***Telefon: 452-24-07***

## Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi PHŞ

Tibb bacısı (qardaşı) -1.0

***Ünvan: Mir-Qasımov küç., 1.***
***Telefon: 595-64-07***

## Respublika Psixiatriya Xəstəxanası PHŞ

Tibb bacısı (qardaşı) - 5.0
Rentgen-texnik - 1.0
Psixoloq - 1.0
Sosioloq - 2.0

***Ünvan: Şeyx Hüseyn küç., 69/71.***
***Telefon: 455-10-91***

## Uşaq Psixonevroloji Mərkəzi PHŞ

Tibb bacısı (qardaşı) -1.0

***Ünvan: Bakıxanov küç., 37.***
***Telefon: 440-49-28***

## ATU-nun Tədris Cərrahiyyə Klinikası

Tibb bacısı (qardaşı) -10.0

***Ünvan: Mirqasımov küç., 2.***
***Telefon: 449-82-54***

## Astara Rayon GEM

Sanitar-feldşer - 1.0

***Ünvan: M.Cavadzadə küç., 2***
***Telefon: (02522) 5-10-51***

## Ağdam Rayon Ruhi Əsəb Dispanseri

Tibbi-statistik - 1.0
Baş tibb bacısı (qardaşı) - 1.0
Pəhriz üzrə tibb bacısı (qardaşı) - 1.0
Əmək terapiyası üzrə təlimatçı - 2.0
Tibb bacısı (qardaşı) - 4.0
Rentgen-texnik - 1.0
Laborant - 1.0
Əczaçı - 1.0

***Ünvan: Quzanlı qəsəbəsi***
***Telefon: (02632) 5-00-41***

## Etibarsız sayılır

Quliyev Asif Həsənxan oğluna məxsus AB-I N 044550 seriyalı diplom itdiyi üçün etibarsız sayılır.

## Başsağlığı

«Tibb qəzeti»nin kollektivi Azərbaycan Tibb Universitinin Uşaq cərrahlığı kafedrasının assistenti Xəlilov Namiq Cavanşir oğluna anası **HƏSƏNOVA SOLMAZ ƏBDÜL-HÜSEYİN QIZININ** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin!**

**Baş redaktor:**
**N.MƏCİDOVA**
**Baş redaktorun müavini:**
**S.NƏBİYEVA**
**Qəzet 1991-ci il yanvarın 5-dən nəşr olunur.**
**Təsisçi:**
**Azərbaycan Respublikası Səhiyyə Nazirliyi**
**Müəlliflərin fikirləri qəzetin mövqeyi ilə üst-üstə düşməyə bilər. Redaksiyaya gələn yazılar geri qaytarılmır, onlara rəy verilmir.**
**Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyata alınmışdır.**
**Qeydiyyat nömrəsi: B92**
**Ünvan: Cəfər Cabbarlı, 34. 1-ci mərtəbə**
**E-mail: tibbqazeti@mail.ru**
**Tel./fax: 596-06-61**
**Redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və «CBS polygraphic production» mətbəəsində çap olunmuşdur.**
**İndeks: 1065**
**Tiraj: 11000**

# Vaksinasiya hələ koronavirus üzərində tam qələbə demək deyil




**Azərbaycanda tətbiq edilən sərt karantin tədbirləri öz müsbət nəticələrini verib. Hazırda ölkədə yoluxma sayının azalması müşahidə olunur. Lakin tətbiq olunan qaydalara əhali tərəfindən riayət olunmazsa, xəstəlik yenidən arta bilər. Bununla əlaqədar olaraq xəstəliyin yayılmasının qarşısını almaq məqsədilə yanvarın 18-dən Azərbaycanda yeni koronavirus infeksiyasına qarşı peyvəndləmə işlərinə start verilib. Vaksinasiyanın aparılması isə hələ xəstəliyin sona çatması və koronavirus üzərində tam qələbə demək deyil. Bundan sonra bir müddət də hər kəs karantin rejiminin tələblərinə əməl etməli, sosial məsafə gözləməli, tibbi maska və digər qoruyucu vasitələrdən istifadəyə davam etməlidir. Bu istiqamətdə həyata keçirilən bütün tədbirlər əhalinin təhlükəsizliyinin təmin edilməsinə və onların sağlamlığının qorunmasına xidmət edir.**

Səhiyyə Nazirliyi Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin baş direktor müavini Afaq Əliyeva hazırkı epidemioloji vəziyyət haqqında müsahibə verib.

**— Peyvəndlənmənin müsbət tərəfləri nədir və nə üçün tövsiyə olunur?**

— COVID-19 infeksiyasına qarşı vaksinasiyanın aparılmasının əsas məqsədi əhali arasında kollektiv immunitetin yaranması, bu yolla infeksiyanın yayılmasının qarşısının alınması və idarə edilən səviyyəyə çatdırılmasına nail olmaqdır. Peyvənddən sonra yoluxma halları baş verdikdə belə, vaksin vasitəsilə qazanılmış anticisimlər sayəsində xəstəlik yüngül keçəcək. Vaksinasiyada əsas məqsəd ağırlaşmaların və ölüm hallarının qarşısını almaqdır.

**— Əhalinin neçə faizi peyvəndlənmədən keçməlidir ki, kütləvi immunitet pandemiyaya öz təsirini göstərsin?**

— Əhali arasında xəstələnmə nəticəsində yaranan təbii immunitet və eyni zamanda, vaksinasiya tədbirləri nəticəsində yaranan süni immunitet əhalinin 70 faizində formalaşarsa, epidemik proses sönəcək.

**— Azərbaycanda peyvəndlənmə cədvəli və tətbiq olunan vaksinlə bağlı nə demək olar?**

— Ölkədə vaksinasiya tədbirləri mərhələlərlə həyata keçirilir. Birinci mərhələdə əhalinin risk qrupları peyvənd olunacaq. Bu əhali qruplarına, ilk növbədə, tibb işçiləri, tənəffüs sisteminin xroniki xəstəlikləri olan şəxslər, yaşı 65-dən yuxarı olan insanlar və digərləri aiddir.

Azərbaycanda istifadə olunan «CoronaVAC» vaksini təhlükəsiz və effektivdir. Vaksinin effektivliyi klinik tədqiqatlar əsasında yüksək (91,5 faiz) qiymətləndirilib. Əminəm ki, bu peyvənd bu xəstəliklə mübarizədə effektiv olacaq.

# «Hartil®-D» preparatının bir seriyası qadağan edildi

**«EGIS əczaçılıq zavodu» Qapalı Səhmdar Cəmiyyəti ona məxsus olan «Hartil®-D» ticari adlı dərman vasitəsinin 0010319 nömrəli seriyasını geri çağırıb. Ramipril hydrochlorothiazide - 2,5 mq12,5 mq tərkibli (tabletlər №28 (2x14) blisterdə, karton qutu qablaşmada) bu preparatın son istifadə tarixi gələn ilin martınadək olan həmin seriyasının stabilliyi tədqiq edilərkən sınaqların nəticəsində spesifikasiya tələblərindən kənara çıxma aşkar edildiyinə görə, dərman vasitəsinin geri çağırılması barədə qərar qəbul edilib.**

Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzindən verilən məlumata görə, bu barədə topdansatış əczaçılıq müəssisələri və «EGIS əczaçılıq zavodu» Qapalı Səhmdar Cəmiyyətinin Azərbaycandakı nümayəndəliyi məlumatlandırılıb.

Bildirilir ki, həmin seriya tabletlərin ölkəmizə idxalı, topdan və pərakəndə satışı qadağan edilib.

# Uşağın ilk üç yaşında sağlamlığı və inkişafı valideynlərdən asılıdır

**Səhiyyə Nazirliyinin Səhiyyənin təşkili şöbəsinin məsləhətçisi Aynurə Zeynalova uşaqların erkən inkişaf dövrü ilə əlaqədar valideynləri maraqlandıran sualları cavablandırıb.**

**— Uşaqlarda erkən inkişaf dövrü dedikdə, hansı yaş aralığı nəzərdə tutulur və nə üçün ən önəmli dövrlərdən sayılır?**

— Erkən uşaqlıq dövrü 0-8 yaşları əhatə edir, bu illər ərzində uşağın inkişafı təkrarolunmaz sürətlə baş verir və məhz bu səbəbdən bu dövr çox əhəmiyyətlidir – bu zaman uşağın beyni hər saniyə inkişaf edir və hər saniyə orada 700-ə qədər neyron əlaqələri yarana bilər, bu da uşağın əqli inkişafını, gələcəkdə təhsilalma qabiliyyətini, karyera qurma, qazanc əldəetmə imkanlarını, hətta gələcəkdə nə dərəcədə xoşbəxt olmağını istiqamətləndirir. Bu neyron əlaqələri nə qədər çox yaranarsa, bir o qədər də uşaq öz potensialını tam reallaşdıra biləcək. Burada xüsusi rolu mayalanmadan 3 yaşa qədər olan dövr oynayır ki, 3 yaşlı uşağın beyninin strukturu böyüklərdə olduğunun 80 faizinədək artıq formalaşmış olur. Ona görə də məhz bu dövr ərzində uşağın sağlamlıq və inkişafına yönəldilən qayğı nə dərəcədə çox olarsa, bir o qədər də onun bütün gələcək həyatının güclü təməli qoyulmuş olacaq.

**— Bəs, bu dövrdə fiziki inkişafa təsir edən amillər hansılardır?**

— Bu yaş dövrünün 5 əsas faktoru var ki, uşağın həm fiziki, həm əqli, həm emosional, həm də sosial inkişafını şərtləndirir. İlk növbədə, sağlamlıq – vaxtında və tam həcmdə göstərilən antenatal (hamiləlik dövründə) tibbi xidmətlər və doğuşa yardım, yenidoğulmuşa düzgün qulluq üzrə valideynlərin təlimləndirilməsi, körpənin tibb işçiləri tərəfindən doğuşdan sonra və mütəmadi olaraq müayinələri və hər hansı problemlərin erkən aşkarlanması, immunlaşdırma, uşaqlıq dövründə xəstəliklərin düzgün müalicəsi. İkinci amil qidalanmadır. Burada xüsusi rolu ana südü ilə qidalanma oynayır. Həyatının ilk bir saatı ərzində ana südü (ağız südü) ilə əmizdirilən uşaqlarda neonatal (həyatının ilk ayı) dövrdə infeksion xəstəliklərə tutulma riski 17 faiz, neonatal dövrdə ölüm riski isə 30 faizədək azalır. Üçüncü amil – təhlükəsiz ətraf mühit. Körpənin doğulduğu andan 3 yaşınadək onun ətraf mühiti ailə və evidir. Həmin mühit uşaq üçün təhlükəsiz olmalıdır. Burada söhbət həm fiziki (elektrik naqilləri, qaz, məişət tullantıları, kimyəvi maddələr), həm də psixoloji təhlükələrdən (baxımsızlıq, uşağa qarşı biganəlik, onunla ünsiyyətin və ona qarşı sevginin olmaması, uşağa qarşı zorakılıq, ailədə zorakılığın şahidi olması) gedir. Məsələn, ailədə zorakılığın şahidi olması uşağı toksik stresə məruz qoyur və onun beyninin inkişafı dayanır, çünki neyronlar arasında əlaqələr bu stresə görə yaranmır. Dördüncü faktor – böyüklər tərəfindən uşağın tələbatlarına uyğun olan qayğı – onunla sevgi əsasında ünsiyyətin qurulması, səsinə səs verilməsi, ağlamasına diqqət verilməsi və onun ehtiyaclarına həssas, diqqətlə yanaşılmasıdır. Beşinci amil uşağın inkişafına təkan verilməsi və erkən təlimdir. Burada həyatının ilk anlarından uşaqla danışmaq, ona mahnı oxumaq, həzin musiqi dinlətmək, danışdıqda gözünə baxmaq, üzünə gülümsəmək. Bütün bunlar inkişafı dəstəkləyir.



**— Körpənin düzgün inkişafını təyin edən göstəricilər hansılardır?**

— Cəmiyyət olaraq aşağıdakı göstəricilər vacibdir: Ana südü ilə qidalanmanın erkən başlanması (həyatın birinci saatı ərzində) — bu göstərici Azərbaycanda körpələr arasında cəmi 42 faizdir (3 ayadək ana südü ilə qidalanma). Ölkəmizdə bu rəqəmlərin daha da çox olması üçün UNICEF ilə birgə layihələr həyata keçiririk. Altı ayadək yalnız ana südü ilə qidalanma – bu göstərici Azərbaycanda 28 faizdir. Uşaqlar arasında inkişaf geriliyinin və ya məhdud sağlamlıq imkanlarının 3 yaşadək aşkarlanması və erkən müdaxilə xidmətlərinin göstərilməsi. İmmunizasiya ilə əhatə. Valideynlərin uşaqla həftə ərzində ən azı 3-4 fərqli inkişafetdirici fəaliyyətlə məşğul olması. Uşaqlar üçün evdə mövcud kitabların sayı. Uşaqların məktəbəqədər təhsilə cəlb olunması.

**— Uşaqların qatı qidaya keçmə dövründə nələrə diqqət etməliyik?**

— Uşaqların menyusuna 6 ayından başlayaraq qatı qidalar əlavə edilməlidir. Burada əsas məqamlar: qidaları tədricən əlavə etmək (hər bir növü ayrıca); birinci tərəvəz purelərindən başlamaq; qida kifayət qədər qatı olmalıdır ki, uşağın enerji tələbatlarını ödəsin; hər bir növ qidanın əlavə edilməsi az miqdardan (yarım qaşıqdan) başlayır və tədricən artırılır; 6-23 aylıq uşaqlar gündə ən azı 4 müxtəlif növ qida qəbul etməlidir (onun biri heyvan mənşəli, 1-2 meyvə-tərəvəz); ana südü ilə qidalanma davam edirsə, 6-8 aylıq uşaqlar qatı qidaları gündə 2-3 dəfə; 9-23 aylıq uşaqlar gündə azı 3-4 dəfə qəbul etməlidir (ehtiyac və istək olarsa, əlavə 1-2 qəlyanaltı da verilə bilər).

**— Cəmiyyət uşaqların düzgün inkişafına necə yardımçı ola bilər?**

— Uşaqların düzgün inkişafı üçün sosial mühit ilk öncə valideynlər üçün dəstəkverici olmalıdır. Uşağın ilk üç yaşında sağlamlığı və inkişafı birbaşa valideyndən asılıdır. Lakin valideynin diqqəti məişət, sosial, iqtisadi problemlərə yönəlibsə, o, uşağın inkişafı ilə məşğul ola bilməyəcək və bu uşağın ən vacib illərində ona lazımi qayğı göstərilməyəcək. İşsizlik, maliyyə problemləri, valideynin aşağı təhsil səviyyəsi və maarifsizliyi uşağın inkişafına birbaşa mənfi təsir göstərir. Bütün bunlar kompleks şəkildə həll olunmalıdır. Ailə (bütün üzvləri, ailə mühiti, ailədə münasibətlər və s.) mərkəzə qoyularaq, onların həllinə də kompleks yanaşma lazımdır.


8 Mart
Əziz xanımlar!
“HB Co LTD” şirkəti
Sizi Beynəlxalq
Qadınlar Günü
münasibəti ilə təbrik edir,
Sizə uzun ömür,
can sağlığı və işlərinizdə
müvəffəqiyyətlər arzulayır!
HB Co LTD
Sağlam gələcək - bizimlə gələcək!


Koronavirusa yoluxma riskini azaldın:
Əllərinizi sabun və su ilə yuyun, yaxud da spirt tərkibli dezinfeksiyaedici ilə təmizləyin
Öskürərkən və asqırarkən ağız və burnunuzu dəsmal və ya dirsək bükümünüzlə bağlayın
Soyuqdəymə və ya qripəbənzər simptomlar müşahidə edilən şəxslərlə yaxın təmasdan çəkinin
Ət məhsullarını və yumurtanı tam bişirin
Canlı vəhşi və ya ferma heyvanları ilə birbaşa təmasda olmayın
Azərbaycan Respublikası Səhiyyə Nazirliyi
İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi
World Health Organization